**Quran və sünnə işığında Həcc, ümrə və ziyarət bələdçisi**

Müəllif: **Səid Ibn Əli Ibn Vəhf əl-Qəhtani**
Tərcüməçi: **Abdur-Rəhim Muradlı**
Redaktor: **Ramil Həsənov**
Məsləhətçi: **Qamət Süleymanov**

Bu kitabı tərcümə etməkdə məqsəd oxuculara həcc və ümrə haqda qısa da olsa məlumat verməkdir.

Kitabın hüquqları qorunur və tərcüməçinin icazəsi olmadan nəşr edilməsinə halallıq verilmir©.

www.abubakr-mescidi.com

بسم الله الرحمن الرحيم

**Həccin vacibliyi**

Həcc İslamın beş əsasından biridir. Onun həddi-büluğa çatanlara vacib olmasını Quran, sünnə və müsəlman alimləri yekdilliklə təsdiq edirlər.

Allah təalə buyurur: "Onun yoluna gücü çatan hər bir kəsin həccə gedib o evi ziyarət etməsi insanların Allah qarşısında borcudur. Kim bunu inkar edərsə. Əlbəttə, Allah aləmlərə möhtac deyildir". (3: 97)

Peyğəmbər ﷺ buyurub: "İslam beş əsas üzərində qurulub: ..." bunlardan biri də həcdir (Buxari və Müslim rəvayət etmişlər).

Həmçinin başqa hədisdə Peyğəmbər ﷺ buyurur: "Ey insanlar Allah عز وجل sizə həcc etməyi vacib etmişdir. Siz də həcc edin..." (Müslim rəvayət etmişdir). İslam ümməti imkanlı adama, ömüründə bir dəfə də olsa, həccin vacib olmasında ittifaq etmişdir.

**Həccin vacib olması üçün şərtlər**

**1.** Müsəlman olmaq. (ət-Tövbə: 28). Çünki müşrik və kafirlərin həcci batil sayılır.

**2.** Ağıl. Dəli insana ağlı başına gələnə qədər nəinki həcc, həmçinin digər ibadətlər də vacib deyil. Peyğəmbər ﷺ buyurub: "Üç adamın üzərindən (yəni, əməl dəftərindən – tər.) qələm qaldırılmışdır: dəli adam ağıllanana qədər, yatan oyanana qədər, uşaq həddi-büluğa (yetkinlik yaşına) çatana qədər" (Əbu Davud, Tirmizi, Nəsai və Ibn Macə rəvayət ediblər, Albani hədisin etibarlı olduğunu bildirib).

**3.** Həddi-büluğa çatmaq. Həcc, həddi-büluğa çatmayan uşağa vacib deyil. Həcc edən uşağın həcci doğru olsa da o, həddi-büluğa çatandan sonra İslamın əsaslarından olan həcci yerinə yetirməlidir.

**4.** Azad olmaq. Kölələrə həcc etmək vacib deyil. Onlar köləlik vaxtı etdikləri həcc doörudur. Lakin azadlığa çıxdıqdan sonra İslamın əsaslarından olan həcci etməlidir.

**5.** Imkan. Həcc imkanı olan adama vacibdir. Bu, Quranda açıq-aydın, sünnədə isə dəlillər ilə varid olmuşdur. Müsəlman alimləri bu məsələdə yekdil fikir söyləmişlər. Imkanı olmayan adamın həcci doğru sayılır.

Qadınlara məxsus əlavə bir şərt vardır ki, bu da onun yanında məhrəminin olmasıdır. Necə ki, Peyğəmbər ﷺ bir hədisdə buyurub: "Bir kişi ilə qadın məhrəm olmayan yerdə tənha qalmasın, bir qadın da məhrəmsiz səfərə çıxmasın" bir nəfər ayağa qalaraq: Ey Rəsuləllah! Mənim zövcəm həccə yola düşüb. Mən isə bəzi döyüşlərə yazılmışam. Peyğəmbər ﷺ buyurdu: "Get, zövcənlə həcc et!" (Buxari rəvayət edib).

Yuxarıda sadalanan şərtlərə cavab verən adama həmin vaxtdan həcc etmək vacib olur. Bu halda onu təxirə salmaq olmaz. Ibn Abbas ﵁ hədisdə deyir ki, Peyğəmbər ﷺ buyurub: "Həccə tələsin, çünki sizlərdən heç kəs başına gələcəkləri bilmir" (Əhməd, Əbu Davud, İbn Macə və s. rəvayət ediblər. Albani hədisin etibarlı olduğunu bildirib). Peyğəmbərin ﷺ bu cür əmr etməsi həccin vacibliyinə sübutdur. Demək həccin şərtlərinə cavab verən adama həcc etmək vacibdir. Əgər həcc etməyə qadirdirsə bunu özü icra etməli, yox əgər qadir deyilsə, onda aşağıdakı iki haldan birini etməlidir:

**Birinci:** Əgər xəstəliyinin sağalacağına ümid bəsləyirsə həcci gecikdirə bilər. Əgər həmin müddətdə vəfat edərsə, bunu onun əvəzinə varisləri yerinə yetirməlidirlər.

**Ikinci:** Əgər qarşısındakı maneə daimidirsə, öz əvəzinə həcc etdirməlidir.

**Başqasının əvəzinə həcc etmək**

Üzərində həcc şərtləri tamamlanan, lakin həcc etməyə qüvvəsi olmayan adam, öz əvəzinə başqasına həcc etdirməlidir. Bu, hədislərdə varid olmuşdur. Həmçinin başqasının əvəzinə həcc edən adam əvvəlcədən öz həccini yerinə yetirmiş olmalıdır. Necə ki, Peyğəmbər ﷺ bir nəfərin: "Ləbbeykə an Şubrumə" - dediyini eşidərək buyurur: "Şubrumə kimdir?" Həmin şəxs: "qardaşım və ya qohumumdur" - deyə cavab verir. Peyğəmbər ﷺ buyurur: "sən öz yerinə həcc etmisənmi?" O dedi: xeyr. Peyğəmbər ﷺ buyurur: "Əvvəlcə öz yerinə, sonra isə Şubrumənin əvəzinə həcc et!" (Əbu Davud, Ibn Macə, Əhməd rəvayət edib. Albani hədisin etibarlı olduğunu bildirib).

**Həcc və Ümrənin fəziləti**

**1.** Peyğəmbər ﷺ buyurub: "Kim bu evi (Kəbəni) heç bir günah etmədən həcc edərsə anadan doğulduğu kimi olar" (Buxari və Müslim). Başqa bir rəvayətdə isə buyurulur: "Kim bu evi (Kəbəni) heç bir günah etmədən ziyarət edərsə anadan doğulduğu kimi olar" (Müslim).

**2.** "Ümrədən ümrəyə günahlar bağışlanır, günah işləmədən yerinə yetirilən həccin isə cənnətdən başqa savabı yoxdur!" (Buxari). Günah işləmədən yerinə yetirilən həcc: riyakarlıq etmədən, heç kəsə əziyyət vermədən, şan-şöhrət xatirinə olmayan, bütün əhkamları layiqincə icra edilən bir həcdir. Həccin qəbul olmasının əlamətlərindən biri də, insanın həcdən öncə etdiyi günahlara qayıtmaması və daha əməlisaleh olmasıdır.

**3.** Peyğəmbər ﷺ Amr İbn əl-Asa buyurub: "Məgər İslamın özündən öncə olanları, hicrətin özündən öncə olanları, eləcə də həccin özündən öncə olanları silməsini bilmirsənmi?" (Müslim).

**4.** Peyğəmbərdən ﷺ: Hansı əməl daha əfzəldir? – deyə soruşulduqda o, buyurdu: "Allaha və Rəsuluna olan iman". Əshabələr dedilər: sonra hansı? Peyğəmbər ﷺ buyurdu: "Allah yolunda cihad". Onlar soruşdular: sonra hansı? O, buyurdu: "Günah işləmədən yerinə yetirilən həcc". (Buxari).

**5.** Peyğəmbər ﷺ buyurub: "Həcc və ümrəni davamlı edin! Çünki onlar kasıblığı və günahları, od dəmirin, qızılın və gümüşün pasını apardığı kimi aparırlar. Günah işləmədən yerinə yetirilən həccin cənnətdən başqa savabı yoxdur" (Nəsai, Tirmizi, İbn Macə və Əhməd rəvayət ediblər. Albani hədisin etibarlı olduğunu bildirib).

**6.** Aişə ؓ Peyğəmbərdən ﷺ soruşdu: Ya Rəsuləllah! Qadınlar üçün cihad varmı? Peyğəmbər ﷺ buyurdu: "Bəli, onlar üçün döyüşsüz cihad: Həcc və Ümrə - vardır" (Əhməd və İbn Macə rəvayət ediblər. Albani hədisin etibarlı olduğunu bildirib).

**7.** Ibn Ömər ؓ Peyğəmbərin ﷺ belə buyurduğunu rəvayət edir: "Allah yolunda döyüşən, həcc və ümrə edən Allahın qonaqlarıdır. Onlar Allahın dəvətini qəbul ediblər. Onlar bunu Allahdan istəyiblər Allah da onlara istədiklərini verib" (İbn Macə və İbn Hibban rəvayət ediblər. Albani hədisin etibarlı olduğunu bildirib).

**8.** Aişə ؓ deyir ki, Peyğəmbər ﷺ buyurub: "Ərəfa günündən başqa, Allahın bəndələrinin çoxusunu cəhənnəmdən qurtardığı bir gün yoxdur. O gün Allah insanlara daha yaxın olaraq mələklərə buyurar: Bunlar nə istəyirlər?!" (Müslim).

**9.** "Ən xeyirli dua Ərəfa günü edilən duadır..." (Tirmizi və Malik rəvayət ediblər. Albani hədisin etibarlı olduğunu bildirib).

**10.** Peyğəmbər ﷺ buyurub: "...Ramazan ayında ümrə edən şəxs, mənimlə həcc etmiş sayılar" (Buxari və Müslim).

**11.** Peyğəmbər ﷺ buyurub: "Məscidul-Həramda qılınan namaz, digər məscidlərdə qılınan namazdan yüz min dəfə üstündür" (Əhməd rəvayət edib və Albani hədisin etibarlı olduğunu bildirib).

**Səfər, ümrə və həcc etməyin ədəb qaydaları**

Həcc və ümrəsinin qəbul olunmasını istəyən adam bir sıra ədəb qaydalarını öyrənməli və onlara əməl etməlidir. Onlardan bəziləri vacib, digərləri isə müstəhəbdir. İndi isə bu ədəb qaydalarının bəzilərini sizə xatırladıram:

**1.** Allaha ﷻ istixarə edərək Ondan münasib vaxtı, miniyi, dostu və gedəcəyi yolu istəməlidir. Həccin özlüyündə xeyirli ibadət olmasına görə onu istixarədə demək lazım deyil. Istixarənin edilmə qaydası isə iki rükət namaz qılmaq və namazda varid olan duanı etməkdir. Istixarə duasını *"Allahummə inni əstəxirukə bi-ilmikə və əstəqdirukə biqudrətikə və əsəlukə min fadlikəl-azim fəinnəkə təqdiru valə aqdiru və tələmu va lə aləmu və əntə alləmul ğuyub. Allahummə in kuntə tələmu ənnə həzəl əmrə* **-burada istədiyini deyir-** *xeyrun li fi dini və məaşi və aqibəti əmri acilihi və əcilihi faqdurhu li və yəssirhu li summə barik li fihi və in kuntə tələmu ənnə həzəl əmrə şərrun li fi dini və məaşi və aqibəti əmri acilihi və əcilihi fəsrifhu anni vəsrifni anhu vəqdur liyəl-xeyra heysu kənə summə ərdini bihi".*

**2.** Həcc və ümrə etmək istəyən adam, bu əməlini sırf Allaha ﷻ məxsus etməli və Allaha ﷻ daha yaxın olmağı qəsd etməlidir. Həcc və ümrə edən insanın niyyəti: dünya, fəxr, titul, ləqəb, riya və ya təkəbbürlük qazanmaq olmamalıdır. Bu cür niyyətli olmaq əməli batil edər və Allah ﷻ yanında qəbul edilməz. Allah təalə buyurur: "De ki: Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür! Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən ilk müsəlmanam!" (əl-Ənam: 162-163). Həmçinin Allah təalə buyurur: "Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı iş görsün və Rəbbinə etdiyi ibadətdə heç kəsi şərik qoşmasın" (Kəhf: 110). Müsəlman məhz belə olmalıdır. O, yalnız Allahın razılığını və axirəti qazanmağı istəməlidir. Bu haqda Allah təalə buyurur: "Hək kəs fani dünyanı istəsə, dilədiyimiz şəxsə orada istədiyimiz neməti tezliklə verərik. Sonra isə ona cəhənnəmi məskan edərik. O, cəhənnəmə qınanmış və qovulmuş bir vəziyyətdə daxil olar" (əl-Isra: 18).

Bir Qüdsi hədisdə Allah təalə buyurur: "Mən şərik qoşulanların arasında şırkdən ən uzaq olanıyam. Kim bir əməlində başqasını Mənə ortaq tutarsa Mən onu və onun şirk əməlini qəbul etmərəm" (Müslim). Peyğəmbər ﷺ öz ümməti üçün kiçik şirkdən qorxaraq belə buyurardı: "Mən sizin üçün ən çox kiçik şirkdən qorxuram". Əshabələr: bəs o kiçik şirk nədir? - deyə soruşduqda o buyurdu: "Riya" (Əhməd rəvayət edib və Albani hədisin etibarlı olduğunu bildirib).

**3.** Həcc və ümrə edən adam bu iki ibadət haqqında ətraflı məlumata malik olmalıdır. Həmçinin səfərə çıxmadan öncə, səfərdə namazın qısaldılması, cəm edilməsi, təyəmmümün, ayağa məsh etməyin və s. bu kimi ehtiyac duyulacaq əməllərin hökmlərini də bilməlidir.

**4.** Həcc və ya ümrə etməsindən asılı olmayaraq, bütün günah və asiliklərdən tövbə etmək. Həqiqi tövbə, bütün günahları tərk etmək, keçmişdə etdiyi günahlara görə peşmançılıq çəkmək və bir daha belə günahlara qayıtmamaqla olur. Həmçinin haqqını tapdaladığı kimsələrin haqlarını qaytarmalı və onlardan halallıq almalıdır. Bunu, Qiyamət günü etdiyi yaxşı əməlləri götürüb, haqqı tapdalanan adama verilməməsi üçün etməlidir. Yaxşı əməli olmayan adamın aqibəti, haqqını tapdaladığı adamın günahlarının ona yüklənməsi ilə nəticələnəcəkdir.

**5.** Həcc və ümrə edən şəxs, bu ibadətləri halal yolla qazandığı malı ilə yerinə yetirməlidir. Allah pakdır və yalnız pak olan işləri qəbul edər. Çünki "haram mal, ibadətin qəbul olmamasına səbəbdir" (Müslim). "Allaha asiliklə yetişən (qidalanan) ətin aqibəti cəhənnəmə daha layiqdir" (Albani hədisin etibarlı olduğunu bildirib).

**6.** Həccə və ümrəyə gedənin vəsiyyətini yazması müstəhəbdir. O, alacağı və verəcəyini bu vəsiyyətdə bildirməlidir.

**7.** Həccə gedənin öz ailəsinə Allahdan ﷻ qorxmağı nəsihət etməsi müstəhəbdir.

**8.** Yola çıxarkən saleh dost seçmək müstəhəbdir. Onun şəriəti bilən tələbələrdən olması bəyənilir. Çünki, bu onun həccinin və ümrəsinin daha düzgün olmasına bir səbəbdir.

**9.** Öz ailəsi, qonşuları, elm əhli və dostları ilə vidalaşmaq müstəhəbdir.

**10.** Dördüncü günün əvvəlində səfərə çıxmaq müstəhəbdir. Çünki Peyğəmbər ﷺ belə edərdi.

**11.** Evdən çıxarkən "Mənzildən çıxarkən oxunan" duanı oxumaq da müstəhəbdir. "Bismilləh, təvəkkəltu aləl-lah, və lə havlə və lə quvvətə illə billəh (Əbu Davud və Tirmizi). Allahummə inni auzu bikə ən ədillə əv udəllə, əv əzillə əv uzəllə, əv əzlimə əv uzləmə, əv əchələ əv yuchələ aləyyə" (Əbu Davud, Tirmizi, Nəsai və İbn Macə).

**12.** Həmçinin maşına, təyyarəyə və başqa miniklərə minərkən səfər duasını oxumaq müstəhəbdir. "Allahu əkbər, Allahu əkbər, Allahu əkbər, Subhənəlləzi səxxara lənə həzə və mə kunnə ləhu muqrinin va innə ilə rabbinə ləmunqalibun. Allahummə innə nəsəlukə fi səfərinə həzə əl-birra vət-təqva və minəl əməli mə tərda, Allahummə havvin aleynə səfərənə həzə vətvi annə budəhu, Allahummə əntəs-sahibu fis-səfər vəl xəlifətu fil əhl, Allahummə inni əuzu bikə min vəsais-səfər və kəabətil mənzər və suul munqaləb, filməli vəl-əhl". (Müslim).

**13.** Həmçinin müsafir yola çıxarkən təkbaşına səfərə çıxmamalıdır. Çünki Peyğəmbər ﷺ bunu qadağan edib (Buxari).

**14.** Müsafirlər sözlərinin yekdil olması üçün öz aralarından bir nəfəri başçı təyin edirlər. Peyğəmbər ﷺ buyurub: "Üç nəfər səfərə çıxdıqda aralarından bir nəfəri başçı seçsinlər" (Əbu Davud rəvayət edib. Albani hədisin etibarlı olduğunu bildirib).

**15.** Istirahət üçün dayandıqda həmin yerin şərindən Peyğəmbərin ﷺ etdiyi aşağdakı dua ilə Allaha ﷻ sığınmaq lazımdır: "Əuzu bikəlimətilləhit-təmməti min şərri mə xaləq". Bu duanı deyən adama qaldığı yerdə oradan gedənə qədər heç bir zərər toxunmaz (Müslim).

**16.** Səfərdə olarkən çoxlu dua etmək müstəhəbdir. Çünki səfərdə olarkən duaların qəbul olma ehtimalı daha çoxdur (Əbu Davud, Tirmizi və İbn Macə rəvayət ediblər. Albani hədisin etibarlı olduğunu bildirib).

**17.** Səfərdə olarkən bacardığı qədər yaxşı işləri əmr etməli, pis işlərdən isə çəkindirməli və eyni zamanda mülayimlik və hikmət kimi davranış qaydalarına riayət etməlidir.

**18.** Bütün günahlardan çəkinməlidir. Heç kəsə nə dili, nə də əli ilə əziyyət verməməlidir. Həmçinin izdihama səbəb olacaq əməllərə yol verməyərək insanlara narahatçılıq törətməməlidir. Qeybət və söz gəzdirməkdən çəkinməlidir. Dostları ilə mübahisələrə yol verməməlidir. Allah təalə buyurur: "Həccin vaxtı məlum olan aylardır. Həmin aylarda həcc ziyarəti vacib olan şəxsə həcdə olarkən qadınla yaxınlıq, söyüş söyüb pis sözlər danışmaq dava-dalaş etmək yaramaz" (əl-Bəqərə: 197:) Məkkə və onun ətrafında edilən günahlar digər yerlərdə edilən günahlardan fərqli olaraq daha böyükdür. Allah təalə buyurur: "(Məscidül həramda) zülmə, haqsızlığa meyl etmək istəyənlərə də şiddətli əzabdan daddıracağıq!" (əl-Həcc: 25).

**19.** Bütün vacibləri yerinə yetirməyə çalışmaq. Bunların ən əzəmətlisi namazdır. Namazı vaxtında camaat ilə qılmağa çalışmaq lazımdır. Həmçinin başqa ibadətləri məsələn, Quran oxumaq, zikr və dua etmək, insanlarla davranışda səmimi və mülayim olmaq, çətinliklər zamanı onlara kömək etmək və s. bu kimi əməlləri də etməlidir.

**20.** Insanlarla gözəl əxlaqla davranmaq.

**21.** Zəiflərə və acizlərə: canı, malı və s. ilə kömək etmək.

**22.** Səfərdən geri dönməyə tələsməlidir. Onun səbəbsiz gecikməsi bəyənilmir. Peyğəmbər ﷺ buyurub: "Səfər əzabın bir parçasıdır. Sizlərdən biriniz səfərdə olarkən yeməyindən, içməyindən və yuxusundan məhrum olur. Elə isə səfər işini yekunlaşdırdıqdan sonra öz ailənizin yanına qayıtmağa tələsin!" (Buxari və Müslim).

**23.** Səfərdən qayıdarkən bu duanı oxumaq lazımdır. "Lə iləhə illəllah vəhdəhu lə şərikə ləhu, ləhul mulku və ləhul həmdu və huvə alə kulli şeyin qadir. Ayibunə, təibunə, abidunə, səcidunə, lirabbinə hamidunə, sədəqəllahu vədəhu, və nəsərə abdəhu, və həzəmə əl-əhzabə vəhdəhu" (Buxari, Müslim).

**24.** Ailəsinin yanına gecə vaxtı gəlməməlidir. Çünki, Peyğəmbər ﷺ bunu qadağan etmişdir. Yalnız öncədən xəbər verərsə gələ bilər.

**25.** Səfərdən qayıdan adamın ona yaxın olan məsciddə iki rükət namaz qılması müstəhəbdir (Buxari və Müslim).

**26.** Səfərdən qayıdan adam öz ailəsi, uşaqları, onu qarşılayan qonşuları və yaxınları ilə xoş davranmalıdır.

**27.** Həmçinin hədiyyə vermək müstəhəbdir. Çünki hədiyyə vermək insanlar arasında düşmənçiliyə son qoyur və onları daha da mehriban edir. Səbəbsiz yerə hədiyyəni rədd etmək bəyənilmir. Peyğəmbər ﷺ buyurub: "Hədiyyə edin, sevilin" (Hədis həsəndir).

**28.** Səfərdən qayıdan adam onu qarşılayanlarla qucaqlaşıb görüşə bilər. Bu, Peyğəmbərin ﷺ əshabının ؓ riayət etdikləri əməldir. Onlar səfərdən qayıdarkən qucaqlaşıb görüşərdilər. Bu haqda Ənəs ؓ deyir: "Onlar üz-üzə gəldikdə əl ilə görüşər, səfərdən qayıtdıqda isə qucaqlaşardılar" (Təbərani rəvayət etmişdir. Heysəmi onun isnadının səhih olduğunu bildirib).

**29.** Səfərdən qayıtdıqdan sonra dostları yığıb ziyafət vermək müstəhəbdir. Bunu Peyğəmbər ﷺ belə edərdi.

**Həcc və ümrənin başlama miqatları (məntəqələri)**

Həcc və ümrə miqatları iki yerə bölünür:

**1.** Zaman miqatları. Həccin zaman miqatı Şəvval ayının əvvəlindən Zilhiccə ayının onuna qədər olan müddətdir. Allah təalə buyurur: "Həccin vaxtı məlum olan aylardır. Həmin aylarda həcc ziyarəti vacib olan şəxsə həcdə olarkən qadınla yaxınlıq, söyüş söyüb pis sözlər danışmaq dava-dalaş etmək yaramaz" (əl-Bəqərə: 197). Lakin ümrənin zaman miqatına məhdudiyyət yoxdur və o istənilən vaxt icra edilə bilər.

**2.** Məkan miqatları: Bu miqatlar Peyğəmbərin ﷺ qeyd etdiyi kimi beşdir. Ibn Abbas ؓ rəvayət edərək deyir: Peyğəmbər ﷺ mədinəlilər üçün Zül-Hüleyfəni, Şam əhli üçün Cühfəni, Nəcd əhli üçün Qərənəl Mənəzili, Yəmən əhli üçün Yələmləmi miqat təyin etmişdir. Adı keçən miqatlar bu yerlərdə yaşayanlar, həmçinin oradan həcc və ümrə niyyəti ilə keçənlər üçündür. Həmin ərazilərdən sonra (Məkkəyə daha yaxın – tər.) yaşayanların miqatı evlərindəndir. Həmçinin Məkkə əhlinin miqatı da Məkkədəndir" (Buxari və Müslim). Aişə ؓ deyir: Peyğəmbər ﷺ Iraq əhli üçün Zətə-irqi miqat seçmişdi (Albani hədisin etibarlı olduğunu bildirib).

Bu yerlərdən, quru, hava və dəniz yolu olmasından asılı olmayaraq, həcc və ya ümrə niyyəti ilə keçən hər kəsə həmin miqatlardan ehrama girmək vacibdir. Ehrama girməmiş bu miqatları keçmək haram sayılır. Təyyarə ilə Ciddə şəhərinə yola düşənlər təyyarəyə minmədən öncə qüsl almalıdırlar. Miqata yaxınlaşdıqda isə ehram paltarını geyinməli və niyyətlərini deməlidirlər. Onu təyyarəyə minmədən öncə də geyinmək olar. Lakin niyyət miqata çatanda və ya yaxınlaşanda deyilməlidir. Çünki Peyğəmbər ﷺ yalnız miqatdan keçərkən niyyət edib. Yaşayış yerləri bu miqatlardan sonra olanlar evlərindən niyyət edirlər. Məkkə əhli isə evlərindən ümrəyə deyil, yalnız həccə niyyət edirlər. Miqatı ehrama girmədən keçənlər ya yenidən miqata qayıdıb ehrama girməli yaxud da qoyun kəsməlidirlər. Bu miqatlardan həcc və ümrə niyyəti ilə keçməyənlərə ehram vacib deyil.


Səudiyyə ərəbistanı krallığı
Mədinə şəhəri
Zül-hüleyfə
Qırmızı dəniz
Rabiğ
Cühfə
Zatə irq
Ciddə
Qərənəl-mənəzil
Məkkə
Yələmləm
Qırmızı dəniz
1

**Həcc və ya ümrə edənin miqatda yerinə yetirəcək əməlləri**

Ümrə və ya həcc edən miqata yetişdikdə aşağıdakılara riayət etməlidir:

**1.** Dırnaqları tutmaq, bığları qısaltmaq, qoltuqaltı və övrət yerlərini qırxmaq müstəhəbdir.

**2.** Bütün paltarları çıxartmalı və yalnız bundan sonra ehram paltarını geyinməlidir. Həmçinin qüsl alması bəyənilir.

**3.** Başına və ya saqqalına ətir sürtə bilər. Ehrama girdikdən sonra qalan ətir iyinin heç bir zərəri yoxdur. Lakin geyindiyi ehram paltarına isə ətir sürtməsin.

**4.** Kişilər iki hissədən ibarət xüsusi paltar "Ehram paltarı" geyinməlidirlər. Paltarın ağ olması bəyənilir. Həmçinin ayaqqabı da geyinilə bilər (bax! şəkil: 2). Qadınlar isə kişilərə oxşamamaq şərti ilə istədikləri paltarı geyinə bilərlər.


2
Ehram paltarı
Üst parça
Alt parça
Ayaqqabı

**5.** Fərz namazından sonra ehrama girmək daha yaxşıdır. Lakin başqa vaxtlarda ehrama girərsə onda iki rükət dəstəmaz namazı niyyəti ilə namaz qılsın. Bunu etmək müstəhəbdir.

**6.** Bunlardan sonra icra etmək istədiyi ibadətə niyyət edir. Əgər ümrə etmək istəyirsə, deyir: "Ləbbeykə umratən" və ya "Allahummə ləbbeykə umratən", əgər ifrad[1] həcci etmək istəyirsə onda "Ləbbeykə həccən" yaxud "Allahummə ləbbeykə həccən" deyir. Əgər qiran həcci etmək istəyirsə niyyəti belə deyir: "Ləbbeykə umrətən və həccən" yaxud "Allahummə ləbbeykə umrətən və həccən". Əgər başqasının yerinə həcc və ya ümrə edirsə onda onun adından niyyət edib belə desin: "Ləbbeykə an ... (adını çəkir)". Yaxşı olar ki, niyyət miniyin üzərində olarkən deyilsin. Çünki Peyğəmbər ﷺ belə edərdi. Həmçinin niyyətdən sonra təlbiyə duasını yəni, "Ləbbeykə Allahummə Ləbbeyk, Ləbbeykə lə şərikə ləkə ləbbeyk. Innəl həmdə vən nimətə ləkə vəl mulk. Lə şərikə lək." (Buxari və Müslim) demək lazımdır. Həcc və ya ümrə edən yolda qalacağından qorxarsa bu duanı edə bilər. "Fə in həbəsəni habisun fəməhilli heysu həbəstəni" (Buxari və Müslim). Üşaqlarla həcc və ya ümrə etmək istəyənlər aşağıdakıları yerinə yetirməlidirlər: Ağlı kəsən uşaqlar ehram niyyətini valideyinlərinin icazəsi ilə etməlidirlər. Ehrama girdikdə onların görəcəkləri işlər böyüklərin əməllərinə uyğun olmalıdır. Əgər uşaqlar ağlıkəsən deyillərsə onda ata-anaları onların əvəzinə niyyət edirlər. Böyüklərə qadağan edilən əməllər onlara da aiddir. Təvaf etdikdə uşağın bədəni və paltarları təmiz olmalıdır. Ağlıkəsən uşaqlar isə təvaf zamanı təharətli olmalıdırlar.

### Üç növ Həccin vəsfi

Bildiyimiz kimi həccin üç növü var.

**1.** Təməttu həcci.
**2.** Qiran həcci.
**3.** Ifrad həcci.

Həcc aylarında yəni, Şəvval, Zil-qədə və Zil-hiccənin ilk on günündə, miqata həmin ildə həcc etmək niyyəti ilə gələn adam bu üç növdən birini seçə bilər.

**1. Təməttu həcci.** Bu həcci etmək istəyən adam, miqatda niyyət edərkən yalnız ümrəyə niyyət etməlidir. Niyyəti belə deyir: "Ləbbeykə umrətən". Sonra Məkkəyə çatana qədər təlbiyəni "**Ləbbeykə Allahummə Ləbbeyk, Ləbbeykə lə şərikə ləkə ləbbeyk. Innəl həmdə vən-nimətə ləkə vəl-mulk. Lə şərikə lək.**" təkrarlayır. Məkkəyə çatandan sonra Kəbə ətrafında təvaf edərək Səfa və Mərva arasında səy edir. Bundan sonra saçını qısalda və ya qırxa bilər. Yalnız belə etdikdə ehramda ona qadağan olanların icrasına icazə verilir. Zilhiccə ayının səkkizində (yəni,

[1] İfrad, Qiran və Təməttu - həccin növləridir. Onlar haqda irəlidə ətraflı məlumat veriləcək.

tərviyə günü – tər.) olduğu yerdən yeni ehrama girir. Bu dəfə isə həccə niyyət edərək onun icrasına başlayır. Təməttu həcci, özü ilə qurban aparmayanlar üçün ən yaxşı həcdir.

**2. Qiran həcci.** Bu həcci etmək istəyən adam həcc aylarında həcc və ümrəyə birlikdə niyyət edərək deyir: "Ləbbeykə umratən və həccən". Yaxud da miqatda olarkən ümrəyə niyyətlənərək yolda həcci də niyyətinə daxil edir. Bunu təvafa başlamadan öncə mütləq etməlidir. Məkkəyə çatanda Təvaful-qudum yəni, ilk təvafı yerinə yetirir. Bundan sonra həcc səyini (Səfa və Mərva arasında) edir. Həcc səyini Ifada təvafından sonra da icra etmək olar. Qiran həccini edən saçını qısaltmır və ehramını əynindən çıxartmır. Bayram günü təhəlluldan[2] sonra ehramı çıxardır.

**3. Ifrad həcci.** Bu həcci etmək istəyən adam miqatda yalnız həccə niyyət edir və deyir: "Ləbbeykə həccən".

Ifrad həccinin əməlləri ilə Qarin həccinin əməlləri eynidir. Fərq yalnız qarin həcci edənin qurban kəsməsindədir. Ifrad həcci edən isə qurban kəsmir. Qiran və ya İfrad həcci edən adam yaxşı olar ki, təvafı və səyi edəndən sonra saçını kəsərək yaxud qırxaraq ehramdan çıxsın. Bu zaman etdiyi təvaf və səy onun üçün ümrə sayılacaq. Sonra səkkizinci gün yenidən həccə niyyət edir və beləliklə həccini Ifrad və ya Qirandan Təməttuya çevirmiş olur.

Ibni Qudamə demişdir: "Elm əhli, bu üç həccdən hər hansına niyyət etməyin caiz olmasına ittifaq ediblər". Buna dəlil Aişənin ﵂ aşağıdakı sözüdür: "Biz Peyğəmbər ﷺ ilə həccə çıxdıq. Bəzilərimiz ümrəyə, digərləri isə ümrə və həccə, bir başqaları isə yalnız həccə niyyət etmişdilər" (Buxari).

[2] İzahı irəlidə veriləcək.

## Ehramda qadağan olunan əməllər

**1.** Səbəbsiz yerə bədənin hər hansı bir hissəsindən tükü qoparmaq və ya saçı kəsmək.
**2.** Əl və ya ayaq dırnaqlarını səbəbsiz yerə tutmaq.
**3.** Kişilərin qəsdən başlarını örtmələri. Həmçinin səhih budur ki, üzü də hər hansı bir örtük ilə örtmək olmaz.

Qadınlar niqab (üz örtüyü – tər.) və əlcək geyinmirlər. Çünki Peyğəmbər ﷺ bunları yasaq edib. O, buyurur: "Ehramda olan qadın nə niqab, nə də əlcək geyinir" (Buxari). Lakin kişilərin arasından keçdiyi zaman üzünü örtə bilər. Çünki qadın səhabələr belə edərdilər.
**4.** Kişilərin bilərəkdən bütün bədənləri yaxud bədənlərinin bir hissəsi üçün tikilmiş paltar geyinmələri. Tikilmiş paltar deyəndə: Bədən üzvlərini birini digərindən ayıran paltar nəzərdə tutulur. Buna: Köynək, əmmamə, şalvar, əlcək, corab, xuff və s. misal çəkmək olar.
**5.** Ehrama girdikdən sonra bilərəkdən paltara və bədənə ətir vurmaq.
**6.** Ov ovlamaq.
**7.** Nigah bağlamaq. Evlənmək yaxud evləndirmək. Ehramda olan adam özü birbaşa yaxud vəkalət yolu ilə nə evlənə, nə də digərlərini evləndirə bilər. Həmçinin nişan etmək və nişanlamaq da olmaz (Müslim).
**8.** Ehramda olarkən cinsi əlaqədə olmaq. Kim birinci təhəllüldən əvvəl cinsi əlaqədə olarsa onun həcci batil sayılar"həcdə olarkən qadınla yaxınlıq.....etmək yaramaz" (əl-Bəqərə: 197).
**9.** Zövcə ilə oynaşmaq, onu öpmək və şəhvətlə baxmaq yasaqdır.

*Həmçinin haramda (Məkkə hüdudlarında – tər.) olan adama ov ovlamaq, ağac qırmaq və bitki qoparmaq yasaqdır.

## Qadağaları edənin boynuna düşən kəffarə

**1.** Saçını və dırnağını kəsən, başını örtən və tikili paltar geyinən kişi, əlcək və niqab geyinən qadın, ətir vuran adam, bütün bunlara görə: ya bir qoyun kəsib Məkkədə yaşayan kasıblara paylamalı, yaxud altı nəfər fağırın hərəsinə yarım saa (iki ovuc) miqdarında yedizdirməli, yaxud da üç gün oruc tutmalıdır. Bu üç kəffarənin hansını istərsə onu seçə bilər.
**2.** Cinsi əlaqədə olmaq. Kim birinci təhəllüldən öncə cinsi əlaqədə olarsa onun həcci batil olar. O, bir heyvan kəsib Məkkənin fağırlarına paylamalıdır. Gələn il isə yenidən həccini qəza etməlidir. Birinci təhəllüldən sonra cinsi əlaqədə olan yalnız bir qoyun kəsməli və Məkkə fağırlarına paylamalıdır. Burada edilən cinsi əlaqəyə qadının da razılığı olubsa, qadının da hökmü kişi ilə eyni olur.

**3.** Ov ovlayanın cəzası. Əgər ovun müqabili varsa onda ovlayan insan üç şeyi seçə bilər: Ya ovun mislində bir heyvan kəsib Məkkənin fağırlarına paylamalı, yaxud həmin ovun müqabili miqdarda yemək çıxarmalı və Məkkə fağırlarının hərəsinə yarım saa (iki ovuc) miqdarında verməli, yaxud da hər fağırın yeməyi müqabilində oruc tutmalıdır. Əgər ovun müqabili yoxdursa bu zaman onun qiymətinə uyğun yemək hesablayır və Məkkə fağırlarının hərəsinə iki saa (iki ovuc) miqdarında paylayır, yaxud da hər fağırı yedizdirməyin əvəzinə bir gün oruc tutur.

**4.** Qadının öpülməsi, onunla oynaşılması və ya şəhvət ilə yanaşılması məni çıxıb çıxmamasından asılı olmayaraq, ehramda yasaq olan əməllərdəndir. Belə edən adamın həcci doğrudur. Lakin o, Allaha ﷻ tövbə etməli və bağışlanma diləməlidir. Bəzi təhqiqatçı alimlər deyiblər ki, bundan əlavə bir qoyun kəsmək və Məkkə fağırlarına paylamaq, yaxud altı nəfər fağıra, hərəsinə yarım saa (iki ovuc) miqdarında yemək yedizidrmək, yaxud da üç gün oruc tutmaq yaxşı olardı. Bunu etmək vacib deyil. Allah ﷻ daha yaxşı bilәndir.

**5.** Həcc və ya ümrə niyyəti ilə ehrama girəndən sonra həccini davam etməsi qadağan olunan adam, maneə: xəstəlik, yol qəzası, üzərində olan mal-dövlətin itməsi və s. aradan götürülənə qədər, bir müddət ehramda gözləməlidir. Maneə götürüldükdən sonra həccini davam etməlidir. Belə hallarda səbrli olmalı və problemi həll etməyə çalışmalıdır. Əgər maneəni götürə bilməsə olduğu yerdə qurbanını kəsib saçını qırxır və ya azaldır. Yalnız bundan sonra təhəllül etmiş (yəni, ehramdan çıxmış) sayılır. Bu haqda Allah təalə buyurur: "Allahdan ötrü həcc və ümrə əməllərini tam yerinə yetirin, əgər arada sizə maneəçilik olarsa, (sizə) müyəssər olan bir qurbanlıq göndərin, qurbanlıq öz yerinə çatıncaya qədər başınızı qırxdırmayın" (əl-Bəqərə: 196). Həmçinin Peyğəmbər ﷺ buyurub: "Kimin ayağı sınar, topal olar və xəstələnərsə o təhəllül edir və gələn il bunun əvəzinə həcc edir" (Müslim). Lakin ehrama girərkən bu duanı: "Fə in həbəsəni habisun fəməhilli heysu həbəstəni" (Buxari və Müslim) deyən adam ehramdan çıxır və qurban kəsmir. Belə bir natamam həccin qəzasının olub olmaması isə ixtilaflı məsələdir. Lakin daha doğru rəyə görə bunu qəza etmək lazım deyil. Yalnız islamın əsaslarından olan həcci və ümrəni edən adam qəza etməlidir.

## Ehramda olana icazə verilən əməllər

**1.** Ehramda olan və olmayan adam zərərli heyvanları hər vaxt öldürə bilər. Aişə ﵂ deyir: Peyğəmbər ﷺ buyurub: "Beş heyvan vardır və onlar zərərli heyvanlardır. Bu heyvanlar ehramda olarkən və ehramda olmayarkən öldürülür. Bunlar:

Çalağan, əqrəb, qarğa, siçan və quduz itdir" (Buxari və Müslim) imam Müslim öz rəvayətində "... və ilan" sözlərini əlavə edibdir (Müslim).

**2.** Geyinməyə ehram paltarı tapa bilməyən adam şalvar, ayaqqabı tapa bilməyən adam isə xüff geyinə bilər. Buxari və Müslim bu hədisi Ibn Abbasdan ﷺ rəvayət etmişdir .

**3.** Uzunluğu topuqdan aşağı olan xüfu geyinmək olar. Çünki xüff bu halda ayaqqabıya bənzəyir.

**4.** Sərinləşmək üçün çimmək olar. Bu zaman saçlarını ehtiyatla ovuşdura bilər.

**5.** Ehramda olan öz paltarını çirkdən və s. təmizləmək üçün yuya bilər. Həmçinin ehram paltarını da başqa icazəli paltar ilə dəyişə bilər.

**6.** Gözə tibbi yaxud günəş eynəyi taxmaq olar.

**7.** Qola saat taxmaq və həmçinin saatı boyundan asmaq olar.

**8.** Ehramda olan adam ehticam edə yəni, qan aldıra bilər. Çünki Peyğəmbər ﷺ "Ehramda olarkən ehticam edib" (Buxari).

**9.** Sərinlənmək üçün çətirlərdən, kölgəli yerlərdən, maşının damından, çadırdan, ağacdan və sairələrdən başa birləşməmək şərti ilə istifadə etmək olar.

**10.** Ehram paltarını düyünləmək yaxud sancaq ilə bağlamaq olar. Bu haqda bunu yasaqlayan bir dəlil yoxdur.

**11.** Qadın niqab və əlcəkdən başqa istədiyi tikili paltarı geyinə bilər. Lazım olduqda baş örtüyünü də üzünə çəkə bilər. Yad kişilərin yanında baş örtüyünü üzünə çəkməsi daha yaxşıdır. Həmçinin qadınlar xüff də geyinə bilərlər.

**12.** Həmçinin bel kəmərlərindən də istifadə etmək olar.

**13.** Ehramın cırılmış yerlərini də tikmək olar. Bu, tikili paltar geyinməkdən fərqlidir. Yasaq olunan tikili paltar bədənin formasında tikilmiş paltarlardır.

## Həccin rüknləri və vacibləri

### A. Həccin rüknləri

**1.** Ehram: həccə girməyi niyyət etməkdir. Bu niyyəti tərk edən adamın həcci yoxdur. Peyğəmbər ﷺ buyurub: "Əməllər niyyətlərə görədir. Hər kəsə onun niyyət etdiyi qalır" (Buxari və Müslim).

**2.** Ərəfada dayanmaq. Peyğəmbər ﷺ buyurub: "Ərafa Həccdəndir" (Müslim).

**3.** Ifada təvafı. Allah təalə buyurur: "...qədim evi (Kəbəni) təvaf etsinlər!" (əl-Həcc: 29).

**4.** Səfa və Mərva arasında səy etmək. Peyğəmbər ﷺ buyurub: "Səy edin! Allah sizə səy etməyi vacib edib" (Albani hədisin etibarlı olduğunu qeyd edib).

### B. Həccin vacibləri

**1.** Miqatdan çıxarkən ehram paltarını geyinmək. Peyğəmbər ﷺ buyurub: "... bu miqatlar həmin yerlərdə yaşayanlar, həmçinin oradan həcc və ümrə niyyəti ilə keçənlər üçündür....".

**2.** Gündüz vaxtı ərəfaya gələnlərin gün batana qədər Ərəfada dayanmaları. Çünki Peyğəmbər ﷺ gün batana qədər Ərəfada dayanıb (Müslim).
**3.** Müzdəlifədə gecələmək. Peyğəmbər ﷺ müzdəlifədə gecələyib və zəiflərə və qocalara gecəyarısı Müzdəlifədən çıxmağa icazə verib.
**4.** Təşriq günləri (Zül-hiccə ayının 11, 12 və 13) Minada gecələmək. Peyğəmbər ﷺ bu günləri Minada gecələyib. Lakin İbn Abbasa ﷺ və dəvə otaran çobanlara Təşriq günləri Minada gecələməməyə də icazə vermişdir. (Buxari və Müslim). Peyğəmbərin ﷺ belə etməsi, bu günlər Minada gecələməyin rükn deyil, vacib olmasına dəlildir.
**5.** Cəməratları (şeytana daş atmağı) tərtiblə etmək. Cəmrətul-əqəbəni bayram günü, digər üç cəməratı isə Təşriq günlərində tərtiblə etmək lazımdır. Çünki Peyğəmbər ﷺ ilk olaraq Cəmrətul-əqəbə ilə başlamış, digər cəməratları isə Təşriq günləri etmişdir. Bu haqda Allah təalə buyurur: "Sayı bəlli olan günlərdə Allahı yada salın. Tələsərək iki gündə (zül-hiccənin on birinci və on ikinci günlərində Minadan Məkkəyə) qayıdana heç bir günah gəlməz. Eləcə də yubanana (zül-hiccənin on üçü Minada qalana) heç bir günah tutulmaz. Bu müttəqilərə aiddir." (əl-Bəqərə: 203).
**6.** Saçı qırxmaq və ya qısaltmaq. Peyğəmbər ﷺ belə etməyi əmr etmiş və buyurmuşdur: "...Saçını kəssin və ehramdan çıxsın." (Buxari və Müslim). Həmçinin Peyğəmbər ﷺ saçlarını qırxanlar üçün üç dəfə, qısaldanlar üçün isə bir dəfə dua etmişdir (Buxari və Müslim).
**7.** Vida təvafı. Peyğəmbər ﷺ vida təvafını etməyi əmr etmiş və buyurmuşdur: "Sizlərdən birinizin edəcəyi son əməl Kəbəni təvaf etmək olsun. Həmin şəxs bunu etmədən oradan çıxmasın" (Müslim). Həmçinin Ibn Abbas ﷺ demişdir: "Insanlara sonuncu olaraq Kəbəni təvaf etmək əmr olunmuşdur. Yalnız heyzli qadınlar müstəsnadır" (Buxari və Müslim).

Həccin rüknlərindən birini tərk edənin həcci batildir. Həccin vaciblərindən birini tərk edən bir qoyun kəsməlidir. Həccin sünnələrindən birini tərk edən heç bir kəffarə ödəmir. Vacibi tərk edənin heyvan kəsməsinə dəlil Ibn Abbasın ﷺ bu sözüdür: "Kim həccindən bir şeyi etməyi unudarsa yaxud tərk edərsə heyvan kəssin" (Malik, Darəqutni və Beyhəqi rəvayət ediblər. Albani bu rəvayətin məvquf olduğunu bildirib).

### Ümrənin rüknləri və vacibləri!

**Ümrənin üç rüknü var.**
**1.** Ehram: Ümrəyə daxil olmağı niyyət etmək.
**2.** Təvaf etmək.
**3.** Səy etmək.

**Ümrənin iki vacibi var.**

**1.** Miqatdan çıxarkən niyyət etmək.

**2.** Saçı qırxmaq və ya qısaltmaq. Peyğəmbər ﷺ buyurub: "Saçını kəssin və ehramdan çıxsın" (Buxari və Müslim).

Ümrənin rüknlərindən birini tərk edənin ümrəsi batildir. Vacibi tərk edən isə heyvan kəsməlidir. Saçını qırxmamış və ya qısaltmamış cinsi əlaqədə olan qoyun kəsməlidir. Belə edən adamın ümrəsi doğrudur. Bu, Ibn Abbasın ﷺ fətvasıdır (Albani bu məvquf rəvayətin səhih olduğunu qeyd edib).

Ümrə təvafını etmədən öncə cinsi əlaqədə olan şəxsin ümrəsi batildir. Bu barədə ixtilaf yoxdur. Həmçinin təvafla səyin arasında cinsi əlaqədə olan şəxsin ümrəsi də batildir. Bu əksər alimlərin fikridir. Hər iki halda o ümrəsini davam edərək qurban kəsir və onu qəza edir.

## Məkkəyə necə daxil olmaq

Həcc və ya ümrə edən Məkkəyə çatdıqda aşağdakıları etməsi müstəhəbdir:

**1.** Təvafdan oncə təmizlənmək və gümrah olmaq niyyəti ilə münasib yerdə istirahət etmək.

**2.** Imkan olduqda çimmək. Çünki Ibn Ömər ﷺ Məkkəyə daxil olmadan öncə Zi-tuva deyilən yerdə gecələyər, təmizlənər və sonra Məkkəyə daxil olardı. O bunu Peyğəmbərin ﷺ də belə etdiyini deyərdi.

**3.** Məkkəyə onun yüksək yerlərindən daxil olmaq.

**4.** Həram məscidinə daxil olduqda sağ ayağı ilə daxil olur və bu duanı deyir: "Əuzu billəhil əzim, və bi vəchihil kərim, və sultanihil qədim, minəş şeytanir rəcim. Bismilləh vəs-salatu vəs-səlamu alə rasulilləh, Allahummə iftəh li əbvabə rəhmətik" (Müslim). Məsciddən çıxdıqda isə bu duanı deyir: "Bismilləh vəs-salatu vəs-səlamu alə rasulilləh, Allahummə inni əsəlukə min fadlikə, Allahummə asimni minəş şeytanir rəcim" (Müslim). Bu duaları nəinki Haram məscidinə, həmçinin bütün məscidlərə girərkən oxumaq olar. Məscidə girərkən bu duaları oxumayana bir günah yoxdur.

**5.** Məscidə girmədən öncə çimməyə imkanı olmayan adam məscidə girərkən dəstəmazlı olmalıdır.

**6.** Haram məscidinə daxil olan şəxsin etdiyi təvaf onun Təhiyyət (Məscid haqqı) namazını əvəz edir. Əgər təvaf etmirsə onda iki rükət namaz qılmalı sonra oturmalıdır.

**7.** Təvafda və ya səydə üzürlü səbəblərə məsələn, xəstəlik və sairəyə görə minik minmək olar.

## Kəbəni təvaf etmək

Ümrə və ya həcc edən Kəbəyə yaxınlaşarkən aşağıdakıları etməlidir:

**1.** Təlbiyəni: *"Ləbbeykə Allahummə Ləbbeyk, Ləbbeykə lə şərikə ləkə ləbbeyk. Innəl həmdə vən-nimətə ləkə vəl mulk. Lə şərikə lək."* - dayandırır və təvaf etməyə başlayır. Təvafı qara daşdan başlayır. Ilkin olaraq üzünü qara daşa tutaraq əli ilə ona işarə edir və "Allahu Əkbər" yaxud "Bismilləh val-lahu əkbər" deyir. Insanlara əziyyət verməmək şərti ilə qara daşı öpmək yaxşıdır.

**2.** Sonra Kəbəni sol tərəfində tutaraq onun ətrafında dövrə vurur. Təvafın əvvəlində bu duanı demək yaxşıdır: "Allahummə iymənən bikə və təsdiqən bi kitəbikə və vafəən bi əhdikə və ittibaən lisunnəti nəbiyyikə Muhəmməd ﷺ" (Beyhəqi və Əbdürrəzzaq).

**3.** Təvafın ilk üç dövrəsini iti yerişlə yeriyir. Qalan dörd dövrəni isə adi yerişlə yeriyir. O, təvafını qara daşdan başlayıb onda da bitirir.

**4.** Kişilər birinci təvafda ehram paltarının üst parçasını qoltuqlarının altından keçirərək sağ çiyinlərini açıq tuturlar. Onların sol çiyinləri isə örtülü olur (bax! şəkil: 3).


Ilk təvafı
edərkən sağ
çiyini açmağın
forması
3

**5.** Rüknul-yəmaniyə yetişdikdə onu öpməyərək sağ əli ilə toxunur və "Bismilləh vallahu əkbər" deyir. Əgər əlini izdiham səbəbi ilə ona sürtə bilməsə əli ilə işarə etməyir. Həmçinin "Bismilləh vallahu əkbər" deməyir. Çünki belə etmək Peyğəmbərdən ﷺ rəvayət edilməyib. Yuxarıda sadalananlar təvafın hər dövrəsində tətbiq edilir.

**6.** Rüknul-yəməni və qara daş arasında olan məsafədə bu duanı demək müstəhəbdir: "Rabbənə ətinə fid dünyə hasənətən va fil axirəti həsənətən va qinə azəbən-nər" ("Bəzləri isə: - Ey Rəbbimiz, bizə dünyada da, axirətdə də gözəl nemətlər ver, bizi cəhənnəm əzabından qoru! – deyirlər" əl-Bəqərə: 201).

**7.** Hər dəfə qara daşa yetişdikdə onu öpür, əlini ona sürtür və "Allahu əkbər" deyirsən. Əgər onu öpmək və ya əl sürtmək mümkün olmazsa, aralıdan işarə edir və "Allahu əkbər" deyirsən. Təvaf zamanı çoxlu zikr, dua edir və bağışlanma diləyirsən. Həmçinin təvaf əsnasında Quran oxumaq olar. Lakin bunları səssiz etmək lazımdır. Ümumiyyətlə təvafda müəyyən bir duanın oxunması əsassızdır. Təvafın hər dövrəsinin bir duası var deyənlərin, şəriətdən heç bir dəlili yoxdur. Həmçinin təvaf edərkən Hicri-İsmayılın içindən keçmək olmaz.

**8.** Yeddi dəfə dövrə etdikdən sonra ehram paltarını çiyinlərinə ataraq düzəldərək Məqami Ibrahimə yaxınlaşır və aşağıdakı ayəni oxuyur: "Vət-təxizu min məqami İbrahimə musallə" ("...İbrahimin durduğu yeri özünüzə namazgah edin" əl-Bəqərə: 125). Imkan olsa Məqami İbrahimin arxasında, əgər imkan olmasa məscidin hər hansı bir yerində iki rükət namaz qılır. Yaxşı olar ki, birinci rükətdə Fatihədən sonra "Kafirun" (Qul yə əyyuhəl kafirun...) surəsini, ikinci rükətdə isə "Ixlas" (Qul huvəllahu əhəd...) surəsini oxusun (bax! şəkil: 4).

Namaz qılmaqla təvaf edənlərin yolunu kəsərək onlara əziyyət vermək olmaz.

**9.** Zəm-zəm quyusundan su içmək və bu sudan başa tökmək müstəhəbdir.

**10.** Bundan sonra imkan olarsa qayıdıb qara daşa əl sürtmək də müstəhəbdir.


4
Təvaf və İbrahim məqamı önündə qılınan iki rükət namaz
İbrahim Məqamı
Allahu əkbər
Qara daş
Bu yerdə deyir:
Rabbənə atinə fid-dunyə həsənətən və fil axirəti həsənətən və qinə əzəbən-nar.
Rüknul-yəmani

**Səfa və Mərva arasında səy etmək**

**1.** Sonra səy edilən yerə çıxır və Səfaya tərəf gedir. Oraya çatdıqda bu ayəni oxuyur: "İnnəs səfa vəl mərvətə min şəairilləh" ("Həqiqətən Səfa və Mərva Allahın əlamətlərindəndir ..." əl-Bəqərə: 158). Sonra belə deyir: "əbdəu bimə bədəəllahu bihi" (Mən Allahın başladığı ilə başlayıram) (Müslim).

**2.** Sonra Səfanın üzərinə çıxaraq üzünü qibləyə tutur. Allaha həmdi səna söyləyib bu duanı oxuyur: *"Allahu əkbər, Allahu əkbər, Allahu əkbər. Lə iləhə illəllah vəhdəhu lə şərikə ləhu ləhul mulku və ləhul həmdu yuhyi və yumit və huvə alə kulli şeyin qadir. Lə iləhə illəllah vəhdəhu lə şərikə ləhu əncəzə vədəhu və nəsərə abdəhu və həzəməl əhzabə vəhdəhu"*. Sonra əllərini qaldıraraq istədiyi duanı edir. Allahdan bağışlanma, dünya və axirətin xeyrini istəyir. Bunu üç dəfə təkrar edir. (bax! şəkil: 5)


Səy
Mərvə
Burada deyilən
zikri oxuyur.
kişilər bu iki yaşıl xəttin arasında qaçırlar
Səfa
5

**3.** Sonra Səfadan enib qarşısına yaşıl xətt çıxana qədər Mərvaya tərəf gedir. Kişilər birinci yaşıl xəttə çatandan sonra ikinci yaşıl xəttə qədər başqalarına əziyyət verməmək şərti ilə bacardığı sürətdə qaçırlar. Ikinci xətdən sonra Mərvaya qədər adi yerişlə yeriyirlər. Mərvaya çatandan sonra onun üzərinə çıxır, üzünü qibləyə tutur və əllərini açaraq Səfada etdiyi duanı burada da oxuyur.
**4.** Sonra Mərvadan Səfaya tərəf gedir. Birinci yaşıl xəttə çatarkən ikinci yaşıl xəttə qədər qaçır. Sonra Səfaya qədər adi yerişlə gəlir. Sonra Səfanın üzərinə çıxaraq ilk dəfə etdiyi duanı yenidən təkrarlayır. Bu minvalla yeddi səy edir. Səyini Səfadan başlayıb Mərvada bitirir. Səfadan Mərvaya tərəf getmək bir səy, Mərvadan da Səfaya gəlmək başqa bir səy sayılır. Səy edən zaman istədiyi duanı və zikri oxuya bilər. Həmcinin İbni Məsud və Abdullah ibn Ömərin dediyi: "Rabbiğfir vərhəm innəkə əntəl-əazzul əkrəm" - duasını söyləyə bilər. Səy edərkən dəstəmazlı olmaq daha yaxşıdır. Lakin dəstəmazsız edilən səy də doğrudur. Həmçinin təvafdan sonra səy edərkən qadın heyz (aybaşı) olarsa onun səyini davam edə bilər. Çünki səydə təmiz olmaq şərt deyil, sadəcə olaraq müstəhəbdir.
**5.** Təməttu həcci və ya ümrə edən şəxs yeddi səyi edəndən sonra saçını qırxır yaxud qısaldır. Qadınlar isə saçlarının ucundan bir-iki s-metr kəsirlər. Əgər həccə az qalıbsa kişilər saçlarını qısaldır və həcc günü saçlarını qırxırlar. Saçın bütün tərəflərindən eyni qaydada qırxmaq lazımdır. Qadınlar isə saçlarını yalnız qısaldırlar.
Deyilənləri edən ehramlı adama, ehramda olarkən qadağan edilən bütün işləri etməyə icazə verilir. Lakin ifrad yaxud qiran həcci edənlər, bayram günü birinci təhəllülə qədər ehramlarında qalırlar. Qarin və ifrad həcci edənlər etdikləri təvaf və səydən sonra başlarını qırxaraq ehramdan çıxıb niyyətlərini təməttu həccinə çevirə bilərlər və bunu etmək daha yaxşı olar. Çünki Peyğəmbər ﷺ həcc edərkən buyurmuşdur: "Əgər mən özümlə qurbanlıq heyvan gətirməsəydim, onu ümrəyə çevirərdim. Sizlərdən qurbanlıq gətirməyənlər də belə etsinlər" (Buxari və Müslim). Qadın ümrəyə niyyət edəndən sonra təvafa başlamamış heyz (aybaşı) olarsa və bu səkkizinci günə qədər davam edərsə onda olduğu yerdən həccə niyyət edir. O, təvaf müstəsna olmaqla həcc edənlərin etdikləri bütün əməlləri icra edir. Təvafı təmizləndikdən və çimdikdən sonra yerinə yetirir. Heyzdən təmizlənəndən sonra bir təvaf və bir səy edir. Bu onun üçün həm həcc, həm də ümrə təvafı və səyi sayılır.

**Səkkizinci gün ediləcək həcc əməlləri**

**1.** Tərviyə (yəni, zilhiccə ayının səkkizinci) günü təməttu həcci edənlər yaxşı olar ki, duha vaxtı (zöhr namazından əvvəl) həcc ehramına girsinlər. Həmçinin Məkkə əhli də bu gündə öz evlərindən ehrama girir və həccə niyyət edirlər. Qiran və ifrad həcci edənlər isə öz ehramlarında qalırlar.
**2.** Bu gün çimmək, təmizlənmək və ətirlənmək müstəhəbdir. Sonra miqatda etdiklərini etməlidir.
**3.** O, həccə niyyətlənərək deyir: "Ləbbeykə həccən". Əgər həccini sona çatdıra bilməyəcəyindən qorxarsa bu duanı etsin: "Fəin həbəsəni habisun fəməhilli heysu həbəstəni". Əgər başqasının yerinə həcc edirsə onda qəlbində niyyət edir və dili ilə deyir: "Ləbbeykə həccən an ..... (o adamın adını çəkir)". Sonra təlbiyə deməkdə davam edir: *"Ləbbeykə Allahummə Ləbbeyk, Ləbbeykə lə şərikə ləkə ləbbeyk. Innəl həmdə vən-nimətə ləkə vəl mulk. Lə şərikə lək"*. Həmçinin bunu da əlavə edə bilər: *"Ləbbeykə iləhəl haqqi ləbbeyk"* (Albani bu rəvayətin səhih olduğunu qeyd edib).
**4.** Zöhrdən qabaq Minaya getmək və təlbiyə demək müstəhəbdir.
**5.** Zöhr, Əsr, Məğrib, Işa və Fəcr namazlarını Minada qılır. Məğrib və Fəcr müstəsna olmaqla digər üç namazı qısaldır. Bütün namazlar öz vaxtlarında qılınır.
**6.** Ərəfa gecəsi *(doqquzuncu günün gecəsi)* Minada qalmaq daha yaxşıdır. Çünki Peyğəmbər ﷺ səkkizinci gün Minaya gəlib və həmin gün axşam ertəsi günə qədər Minada qalıb. Sonra təlbiyə və təkbir edərək Ərəfata üz tutub. Lakin yalnız təlbiyə etmək daha yaxşıdır (bax! Şəkil: 6).



**Ərafada dayanmaq!**

**1.** Günortadan əvvəl Ərəfaya çatan hacının Nəmirə deyilən yerdə dayanması müstəhəbdir. Əgər imkan olmasa dayanmamaq olar.

**2.** Gün əyiləndən sonra yaxşı olar ki, xütbə verilsin və həcc edənlərə onların edəcəkləri əməllər izah edilsin. Xatib onlara Allahdan qorxmağı, bütün əməllərdə təqvalı və ixlaslı olmağı nəsihət etməli və Allaha asilik etməkdən çəkindirməlidir. Onlara Allahın kitabından və Peyğəmbərin ﷺ sünnəsindən bərk tutmağı, bütün işlərdə hər ikisini öz aralarında hakim etməyi tövsiyə etməlidir. Xütbədən sonra Zöhr və Əsr namazlarını zöhrün ilk vaxtında bir azan və iki iqamə ilə qısaldaraq birgə qılırlar.

**3.** Namazı öz camaatı ilə qılmayan başqa camaata qoşulur.

**4.** Günəş göyün ortasından əyilən sonra Ərafada olmayanlar Ərəfaya gəlməli və onun hüdudları daxilində olmalıdırlar. Dua edərkən Rəhmət dağını özü ilə qiblə arasında etmək daha yaxşı olar. Əgər imkan olmazsa onda üzünü birbaşa qibləyə çevirsin (bax! şəkil:7).




**5.** Həcc edən bu məqamda Allahı zikr və dua etməyə çalışmalıdır. Dua edərkən Peyğəmbərin ﷺ etdiyi kimi əllərini göyə qaldırmalıdır. Peyğəmbər ﷺ zöhr namazından sonra Ərafada dayanaraq əllərini göyə qaldırar və gün batana qədər dua edərdi. Peyğəmbər ﷺ öz ümmətinə bu gündə dua etməyi tövsiyə etmiş və buyurmuşdur: "Ən xeyirli dua, Ərəfa günü edilən duadır. Mən və məndən öncəki Peyğəmbərlərin ﷺ dedikləri ən xeyirli dua: *"Lə iləhə illəllah vəhdəhu lə şərikə ləhu ləhul mulku və ləhul həmdu və huvə alə kulli şeyin qadir"* (Albani hədisin həsən olduğunu bildirib). Həmçinin Peyğəmbər ﷺ buyurub: "Ərəfa günündən başqa, Allahın bəndələrinin çoxusunu cəhənnəmdən qurtardığı bir gün yoxdur. O gün Allah insanlara daha yaxın olaraq mələklərə buyurar: Bunlar nə istəyirlər?! - deyərək soruşar" (Müslim). Buna görə həcc edən adam bu fürsəti əldən verməməli və gün batana qədər çoxlu zikr, dua, təsbih *(sübhənəllah)*, təhmid *(əlhəmdulillah)*, təhlil *(lə iləhə illəllah)* deməli, tövbə və istiğfar etməlidir. Bu gündə oruc tutmamaq daha yaxşıdır. Çünki Peyğəmbər ﷺ Ummul-Fədlin verdiyi bir qab südü dəvəsinin üzərində içmişdir.

**6.** Gün batandan sonra həcc edənlər, bir-birinə əziyyət vermədən təlbiyə edərək Müzdəlifəyə tərəf yollanırlar.

**7.** Ərəfa gününün vaxtı bayram günü fəcr namazına qədərdir.

**8.** Bayram günü fəcr namazına qədər Ərafaya yetişməyənin həcci batil sayılır. Əgər ehrama niyyət edərkən: *"Fə in həbəsəni həbisun fəməhilli heysu həbəstəni"* - duasını deyibsə, sadəcə ehramdan çıxır və onun üzərinə heç bir şey vacib olmur. Bu duanı deməyib Ərəfaya gecikənlər isə ümrə ilə ehramdan çıxırlar. Onlar təvaf və səy edib saçlarını kəsir və ya qısaldırlar. Üzərində qurbanlıq olanlar isə onu kəsir və gələn il yenidən həcc edərək qurban kəsirlər. Bu, Ömər Ibn əl-Xəttab tərəfindən Əbu Əyyuba və Hubbar Ibn əl-Əsvədə ؓ verilən fətvadır.

## Müzdəlifədə gecələmək

**1.** Müzdəlifəyə çatan kimi orada bir azan və iki iqamə ilə Məğrib namazını üç, Işa namazını isə iki rükət cəm edərək qılır. Izdiham səbəbi ilə Müzdəlifəyə gecikənlər namazları gecənin yarısından ötürməməli və olduqları yerdə qılmalıdırlar.
**2.** Həcc edən, bu gecəni Müzdəlifədə keçirir. Bayram günü həcc əməllərini layiqincə yerinə yetirmək üçün gecə tez yatmaq yaxşıdır.
**3.** Zəif qadın və uşaqlar gecə yarısı Müzdəlifədən Minaya gedə bilərlər.
**4.** Fəcr namazının vaxtı girəndən sonra Məşəril-haramda dayanır, üzünü qibləyə tutur və əllərini qaldıraraq dua, zikr, təkbir və təhlil edir. Bunu günəş saralana qədər etmək yaxşıdır. Müzdəlifənin hər hansı yerində dayanıb bu duanı etmək olar.
**5.** Hava tam işıqlandıqdan sonra günəş çıxmamış Müzdəlifədən Minaya gedir. Müzdəlifədən yeddi ədəd dırnaq boyda daş toplamaq sünnədəndir (bax! şəkil: 8). Lakin digər üç günün daşlarını isə Minadan toplamaq lazımdır.
**6.** Bu gündə Müzdəlifədən Minaya gedərkən çoxli təlbiyə edilir.



**Qurban günü edilən həcc əməlləri**

Qurban günü Minaya yetişənlər bu dörd əmələ tərtiblə riayət etməlidirlər.

**1.** Daş atan yerə "Cəmərətul-əqəbəyə" çatanda təlbiyə deməyi dayandırırlar. Yaxşı olar ki, sağ tərəfində Minanı, sol tərəfində Məkkəni, qarşısında isə Cəmərətul-əqəbəni *(yəni, böyük daşatan yeri)* tutsun (bax! şəkil: 9). Sonra ardıcıl olaraq yeddi daş atsın. Daşları bir-bir atsın və hər daşı atanda təkbir (Allahu əkbər) desin. Cəmrətul-əqəbə Məkkə tərəfdən birinci daş atılan yerdir (bax! şəkil: 9).

**2.** Daş atan hacılar qurbanlarını kəsirlər. Qurban təməttu və qiran həcci edənlərə vacibdir. Bu haqda Allah təalə buyurur: "...Həcc vaxtına qədər ümrə ziyarətindən istifadə edən şəxs müyəssər etdiyi bir heyvan kəsməlidir. Qurbanlıq tapmayanlar bunun əvəzində həcc ziyarəti günlərində üç gün və qayıdandan sonra yeddi gün oruc tutmalıdır ki, bu da tam on gün edər. Ümrə ziyarəti, Məscidul-haramda sakin olmayanlara aiddir" (əı-Bəqərə: 196).


9
Cəmərətul-əqəbəni atmaq qaydası
Məkkə
Mina

Qurbanı kəsəndə bu duanı demək müstəhəbdir: *"Bismilləh, vallahu əkbər, Allahummə minkə və ləkə, Allahummə təqəbbəl minni"* (Müslim). Heyvanı sol tərəfi üzərində qibləyə tərəf kəsmək sünnədir. Kəsdiyi qurbanın ətindən yemək və hədiyyə etmək müstəhəbdir. "...onlardan özünüz də yeyin, biçarə, zavallı yoxsula da yedirdin!" (əl-Həcc: 28). Qurban kəsməyin vaxtı 13-cü gün günbatana qədərdir. Qurban Minada və ya Məkkədə kəsilə bilər. Peyğəmbər ﷺ buyurub: "Ərafanın hər yerində dayanmaq olar. Minanın hər yerində qurban kəsmək olar. Müzdəlifənin hər yerində dayanmaq olar. Məkənnin hər küçəsi yoldur və orada qurban kəsmək olar" (Müslim və Əbu Davud).

**3.** Həcc edən qurbanını kəsdikdən sonra saçını qısaldır və ya qırxır. Kişilər üçün saçı qırxmaq daha yaxşıdır. Çünki Peyğəmbər ﷺ saçlarını qırxanlar üçün üç dəfə, qısaldanlar üçün isə bir dəfə dua etmişdir (Buxari və Müslim). Qadınlar isə saçlarını yalnız bir s-metr uzunluğunda qısaldırlar. Daş atandan və saçı kəsəndən sonra ehramda olana qadınlardan başqa hər şey halal olur. Bu, birinci təhəllül adlanır.

Birinci təhəllüldən sonra ətirlənmək, təmizlənmək və ən gözəl paltarı geyinmək olar.

**4.** Bu əməlləri etdikdən sonra təvaf etmək üçün Məkkəyə gedir. Bu təvaf ifada yaxud ziyarət təvafı adlanır. Bu təvaf həccin rüknlərindən biridir. Ayədə qəsd olunan təvaf da budur. "Sonra həcc əməllərini yerinə yetirsinlər, nəzirlərini versinlər və qədim evi (Kəbəni) təvaf etsinlər" (əl-Həcc: 29). Bu təvaf, əvvəldə deyilən kimi olur. Lakin burada tez yerimək və ya çiyinin birini açmaq lazım deyil. Təvafdan sonra Məqami İbrahimin arxasında iki rükət namaz qılınmalıdır. Zəm-zəm suyundan içmək yaxşı olar. Təməttu həcci edənlər Səfa və Mərva arasında səy etməlidirlər. Çünki onun birinci etdiyi səy ümrə, bu isə həcc səyidir. Qiran və ifrad həcci edənlər yalnız bir səy etməlidirlər. Əgər onlar ilk təvafdan sonra səy ediblərsə ifadə təvafından sonra onlara səy etmək lazım deyil. Yox əgər ilk təvafdan sonra səy etməyiblərsə onda ifadə təvafından sonra səy etməlidirlər. Ikinci təhəllül üç əməli edəndən sonra olur. Bunlar: Daş atmaq, saçı qırxmaq və ya qısaltmaq, ifadə təvafı və səydir. Bu üç işi edənlərə ehramla qadağan olan hər şey, hətta qadınlar belə halal olur. Lakin bu üç əməldən ikisini edənlərə qadınlardan başqa hər şey halal olur. Bu, birinci təhəllül adlanır.

Həcc edənlər bu dörd əməli aşağıdakı tərtiblə etsələr daha yaxşı olar.

**1.** Daş atmaq.

**2.** Qurban kəsmək.

**3.** Saçı qırxmaq və ya qısaltmaq.

**4.** Kəbəni təvaf etmək və səy etmək.

Bu əməllərin birini digərindən əvvəl etmək olar. Belə bir şəxsin həcci məqbuldur.

**Təşriq (11,12, 13) günləri edilən həcc əməlləri**

**1.** Həcc edən ifadə təvafından və səydən sonra Minaya qayıdır və orada on birinci və on ikinci gecəni gecələyir. Bu gecələmə hər kəsə vacibdir. Yalnız çobanlar, insanlara su verənlər və buna bənzər işlərdə çalışanlar müstəsnadır. Çünki Peyğəmbər ﷺ çobanlara və insanlara su verənlərə Minada gecələməməyə icazə verib. Buna görə Ömər ؓ deyirdi: "Hacılardan heç kəs Əqəbədən (yəni, daş atılan yerdən) bayırda gecələməsin". Həmçinin bu iki gündə daşlar zəvaldan (gün əyiləndən) sonra atlmalıdır. Onları atmaq vacibdir. Zəvaldan öncə daşları atmaq olmaz. Çünki Peyğəmbər ﷺ daşları yalnız zəvaldan sonra atardı. Əgər buna icazə verilsəydi Peyğəmbər ﷺ daşları ümmətinə rahat olsun deyə zəvaldan qabaq atardı. Daşları atarkən bu tərtibə fikir verməк lazımdır:

**A.** Ilk olaraq, birinci cəmərata daş atmaqla başlayır. Yeddi ədəd daş götürüb, hər daşı atanda təkbir "Allahu əkbər" deyərək daşları atır. Daşların hamısı hovuza düşməlidir. Sonra bir az irəli gedib dayanaraq əllərini qaldırır və uzun dua edir.

**B.** Sonra gedib ikinci (orta cəmərata) ardıcıl olaraq yeddi ədəd daş atır. Hər daşı atanda təkbir edir. Sonra bir az irəli gedib dayanaraq əllərini qaldırır və uzun dua edir.

**C.** Sonra gedib sonuncu cəmarata "Cəmərətul-əqəbəyə" yeddi ədəd daş atır. Hər daşı atanda təkbir edir. Daşları atandan sonra dua etmir (bax! şəkil: 10).

On ikinci gün zəvaldan sonra eyni qayda ilə daşları atır və dua edir (bax! şəkil: 10).



**2.** Qurban kəsə bilməyərək Təməttu və Qiran həcci edənlər on gün oruc tutmalıdırlar. Bunun üç günü həcdə qalan yeddi günü isə evlərinə qayıdandan sonra tutulur. Üç gün orucu bayramdan qabaq və yaxud sonra təşriq (11, 12, 13) günlərində tutmaq olar. Yaxşı olar ki, üç günün orucunu Ərafa günü tutmasın. Çünki Peyğəmbər ﷺ bu gündə oruc tutmamışdır.
**3.** Daş ata bilməyən xəstələr, yaşlılar, uşaqlar, hamilə qadınlar və s. belə vəziyyətdə olanlar başqasına onun yerinə daş atmağı həvalə edə bilərlər. Çünki bu cür insanlar oraya gedə bilmirlər. Cəmaratın vaxtının çox məhdud olduğundan onun qəzası da yoxdur. Güclü kişi və qadınlar isə daş atmağı başqasına həvalə edə bilməzlər. Daş atmaq tapşırılanlar ilk olaraq öz yerlərinə yeddi daş, sonra həmin yerdən çıxmayaraq başqasının yerinə yeddi daş atırlar. Həmçinin bunu digər ikinci və üçüncü daş atılan yerdə də edirlər. Körpə uşaqların yerinə də bu qayda ilə daş atılır.
**4.** Təşriq günləri daşları gün batmadan öncə atmaq daha yaxşıdır. Həmçinin bayram günü gün batmamış daş atanalrın əməli doğrudur. Lakin bayram günü daşları günortaya qədər atmaq daha yaxşıdır. Təşriq günləri gün batandan sonra daş atmağa bəzi alimlər icazə vermişlər. Çünki Peyğəmbər ﷺ təşriq günləri daş atmağın ilk vaxtının zəvaldan sonra başladığını qeyd edib. Lakin nə vaxt bitməsini isə bildirməmişdir.
**5.** On ikinci gün günəş batandan sonra Minadan çıxmaq olmaz. Yalnız on üçüncü gün daş atandan sonra Minadan çıxmaq olar. On ikinci gün müəyyən çətinliklər məsələn, yolların izdihamlı olması üzündən günəş batmamış Minadan çıxa bilməyənlər günəş batandan sonra da çıxa bilərlər.
**6.** On ikinci gün günəş batandan sonra daşları atıb Minadan çıxanlar vida təvafını edib ölkələrinə qayıda bilərlər. Onlar, on üçüncü gün Minada gecələyərək zəvaldan sonra daşları atıb çıxa bilərlər. Bunu etmək daha yaxşıdır. Allah təalə buyurur: ".....Tələsərək iki gündə (zül-hiccənin on birinci və on ikinci günlərində Minadan Məkkəyə) qayıdana heç bir günah gəlməz. Eləcə də yubanana (zül-hiccənin on üçü Minada qalana) heç bir günah tutulmaz. Bu müttəqilərə aiddir." (əl-Bəqərə: 203). Həmçinin Peyğəmbər ﷺ tələsənlərə on ikinci gün çıxmağa icazə vermişdir. Lakin özü on üçüncü gün daşları atandan sonra çıxmış və Əbtəh deyilən yerdə dayanmışdır. Orada zöhr, əsr, məğrib və işa namazlarını qılmış və bir az istirahət etdikdən sonra vida təvafını etməyə getmişdir.

**Vida təvafı**

Həcc edənlər Məkkədən çıxmaq istədikdə vida təvafı etməlidirlər. Çünki Peyğəmbər ﷺ buyurub: "Sizlərdən biriniz Kəbəni təvaf etmədən oradan çıxmasın"

(Müslim). Həmçinin Ibn Abbas ﷺ deyir: "Insanlara sonuncu olaraq Kəbəni təvaf etmək əmr olunmuşdur. Yalnız heyzli qadınlar müstəsnadır" (Buxari və Müslim). Heyzli və nifaslı qadınlara vida təvafı vacib deyil. Aişə ﷺ deyir: Səfiyyə ifada təvafından sonra heyz olmuşdu və Peyğəmbər ﷺ ona: "*(vida təvafı etmədən)* çıxa bilərsən" - dedi. (Buxari və Müslim). Yeddi dövrə təvaf edir. Məqami Ibrahimin arxasında iki rükət namaz qıldıqdan sonra məsciddən çıxır. Bu zaman məsciddən çıxarkən oxunan duanı deyir və yola düşür.

**Peyğəmbərin ﷺ məscidini ziyarət etmək**

**1.** Peyğəmbərin ﷺ məscidini ilin istənilən vaxtı ziyarət etmək müstəhəbdir. Buna müəyyən bir vaxt təyin edilməmişdir. Belə ziyarət həccin əməllərindən deyildir. Buraya Peyğəmbərin ﷺ qəbrini ziyarət etmək niyyəti ilə gəlmək düzgün deyil. Çünki yalnız üç məscidə: Məscidul Hərama (Kəbəyə), Peyğəmbərin ﷺ məscidinə və Əqsa məscidinə ziyarət edilə bilər. Mədinənin kənarında yaşayanlar isə qəbri deyil, ancaq məscidi ziyarət etmək üçün gəlməlidirlər. Məscidə gələnlər Peyğəmbərin ﷺ və əshabının qəbrlərini ziyarət edə bilərlər. Peyğəmbərin ﷺ məscidində namaz qılmağın fəziləti çoxdur. Peyğəmbər ﷺ buyurub: "Mənim məscidimdə qılınan namaz, məscidul həramdan başqa məscidlərdə qılınan namazdan min dəfə xeyirlidir. Məscidul həramda qılınan namaz isə digər məscidlərdə qılınan namazlardan yüz min dəfə xeyirlidir" *(Ibn Macə və Əhməd. Albani bu hədisin etibarlı olduğunu bildirib).*

**2.** Peyğəmbərin ﷺ məscidinə sağ ayaq ilə daxil olub bu duanı demək lazımdır: *"Əuzu billəhil Əzim və bi vəchihil kərim və sultanihil qədim minəş şeytanir rəcim. Bismilləh vəs-salatu vəs-səlamu alə rasulilləh Allahummə iftəh li əbvabə rəhmətik"* (Müslim).

**3.** Iki rükət təhiyyətul məscid və ya istədiyi namazı qılır və namazda istədiyi duanı edir. Bunu Rəvdada (Peyğəmbərin ﷺ evi ilə minbəri arasında olan yerdə) qılmaq yaxşıdır. Lakin fərz namazları isə birinci səfdə qılmaq daha yaxşıdır.

**4.** Namaz qılandan sonra Peyğəmbərin ﷺ qəbrini ziyarət etmək istəsə qəbrin önündə ədəb-ərkan və sakit səslə ona belə salam verir: "Əssəlamu aleykə əyyuhən nəbiyyu və rəhmətullahi və bərəkatuhu. Allahummə salli alə Muhəmməd və alə ali Muhəmməd kəmə salleytə alə İbrahim və alə ali İbrahim innəkə həmidun məcid. Allahummə barik alə Muhəmməd və alə ali Muhəmməd kəmə barəktə alə İbrahim və alə ali İbrahim innəkə həmidun məcid". Yaxud belə deyir: "Əssələmu aleykə ya Rəsuləllah və rəhmətullahi və bərəkətuhu".

**5.** Sonra bir az sağ tərəfə irəliləyərək Əbu Bəkrə ؓ salam verir və onun üçün dua edir. Sonra bir az irəli gedərək Öməre ؓ salam verir və onun üçün də dua edir. Ibn Ömər ؓ ziyarət edəndə belə deyərdi: "Əssələmu aleykə ya Rəsuləllah, əssələmu aleykə ya Əbu Bəkr, əssələmu aleykə ya ata" deyərək keçib gedərdi. Daşlara əl sürtərək, qəbrin ətrafında dövrə vuraraq, Peyğəmbərdən ﷺ kömək, şəfa və s. diləyərək Allaha yaxınlaşmaq olmaz. Çünki bu əməllər yalnız Allaha məxsusdur. Qadınlar Peyğəmbərin ﷺ və başqalarının qəbirlərini ziyarət etmirlər. Çünki Peyğəmbər ﷺ qəbirləri ziyarət edən qadınları lənətləyib. Qadınlar yalnız Peyğəmbərin ﷺ məscidini ziyarət edir və oradakı min namaz savabını qazanmaq üçün ibadət edirlər. Peyğəmbərə ﷺ isə kənardan salam verirlər. Allah da onların salamını Peyğəmbərə ﷺ yetişdirir. Çünki Peyğəmbər ﷺ buyurub: "Evlərinizi

qəbirstanlığa çevirməyin. Mənim qəbrimi də ibadətgah etməyin. Mənə salam verin. Sizin salamınız harada olmağınızdan asılı olmayaraq mənə yetişər". Həmçinin başqa bir hədisdə buyurulur: "Allahın səyahətçi mələkləri var. Onlar yer üzünü gəzər və ümmətimin salamını mənə çatdırarlar".

**6.** Mədinəni ziyarət edənlərin Quba məscidini də ziyarət etməsi və orada iki rükət namaz qılması bəyənilir. "Peyğəmbər ﷺ piyada və ya miniklə Quba məscidinə gələr və orada iki rükət namaz qılardı" *(Buxari və Müslim)*. Bir hədisdə buyurulur: "Kim evində dəstəmaz alıb Quba məscidinə gələrsə və orada namaz qılarsa ona ümrə savabı yazılar" *(Albani bu hədisin səhih olduğunu qeyd edib).*

**7.** Kişilər Bəqi qəbirstanlığını və Uhud şəhidlərini ziyarət edə bilərlər. Çünki Peyğəmbər ﷺ onları ziyarət edər və onlar üçün dua edərdi. Qəbirləri ziyarət edərkən belə deyilir: *"Əssələmu aleykum əhləd-diyari minəl mumininə vəl muslimin və innə inşəllah bikum ləhiqun. Yərhəmullahul-mustəqdəminə minnə vəl mustəxərin, nəsəlullahə lənə və ləkumul-afiyə"* (Müslim). Qəbirləri ziyarət etməkdə məqsəd, axirəti yada salmaq, ölülər üçün dua etmək və Peyğəmbərin ﷺ sünnəsinə riayətdir. Belə bir ziyarət şəriətə müvafiqdir. Lakin qəbirləri kömək, şəfaət, vasitə mənbəsinə çevirmək, onların önündə dua etmək və s. bu kimi əməllər bidətdir (yəni, dinə əlavədir). Onların şəriətdə heç bir əsası yoxdur. Yuxarıda sadalanan bu əməllərin bəzisi şirk deyil bidətdir. Məsələn, qəbirin önündə Allaha dua etmək, onu Allaha vasitə tutmaq və s. Lakin bəzən bidət böyük şirk olur. Məsələn, ölülərdən kömək istəmək, onlara sığınmaq və s. bu kimi əməllər şirkdir.

**Qurani Kərimdən və səhih hədislərdən müstəcəb dualar!**

1. **"Rabbənə zaləmnə ənfusənə və in-ləm təğfir lənə və tərhəmnə lənəkunənnə minəl xasirin"[3].**

*"Ey Rəbbimiz! Biz özümüzə zülm etdik. Əgər bizi bağışlamasan, rəhm etməsən, biz, şübhəsiz ki, ziyana uğrayanlardan olarıq!".*

2. **"Rabbi inni auzu bikə ən əsələkə mə ləysə li bihi ilmun. Və illə təğfir li və tərhəmni əkun minəl xasirin"[4].**

*"Ey Rəbbim! Bilmədiyim bir şeyi Səndən istəməkdən (belə bir işə cürət etməkdən) Sənə sığınıram. Əgər məni bağışlamasan, rəhm etməsən, ziyana uğrayanlardan olaram!".*

3. **"Rabbiğfirli və livalideyyə və limən daxələ bəytiyə muminən və lilmumininə vəl muminət"[5].**

*"Ey Rəbbim! Məni, ata-anamı, mənim evimə (yaxud məscidimə) mömin kimi daxil olan kimsəni və (qiyamət gününə qədər olacaq) bütün mömin kişiləri və qadınları bağışla".*

4. **"Rabbənə təqabbəl minnə innəkə əntəs səmiul əlim" "Va tub aleynə innəkə əntət təvvabur rahim"[6].**

*"Ey Rəbbimiz! (Bu xeyirli işi) bizdən qəbul et, Sən, doğrudan da, (hər şeyi) eşidənsən, bilənsən!" "Tövbəmizi qəbul et! Həqiqətən, Sən tövbələri qəbul edənsən, mərhəmətlisən!".*

5. **"Rabbi icəlni muqiməs saləti və min zurriyyəti. Rabbənə və təqəbbəl duai"[7].**

*"Ey Rəbbim! Məni də, nəslimdən olanları da (vaxtlı-vaxtında, lazımınca) namaz qılan et. Ey Rəbbimiz! Duamı qəbul buyur!".*

6. **"Rabbənəğfirli va livalideyyə va lilmumininə yavmə yaqumul hisəb"[8].**

*"Ey Rəbbim! Haqq-hesab çəkilən gün (qiyamət günü) məni, ata-anamı və möminləri bağışla!".*

7. **"Rabbi həb li hukmən və əlhiqni bissalihin. Vəcəl li lisənə sidqin fil əxirin. Vəcəlni min varəsəti cənnətin nəim" "Valə tuxzini yavmə yubəsun"[9].**

*"Ey Rəbbim! Mənə hikmət bəxş et və məni (Sənin rizanı qazanmış) salehlərlə (yaxşılar zümrəsinə) qovuşdur! Sonra gələnlər arasında mənə yaxşı ad qismət elə! Məni Nəim cənnətlərinin varislərindən et!" "(İnsanların qəbirlərindən çıxardılıb) dirildəcəyi gün (qiyamət günü) məni zəlil (rüsvay) etmə!".*

8. **"Rabbi həb li minəs salihin"[10].**

---

[3] əl-Əraf: 23.
[4] Hud: 47.
[5] Nuh: 28.
[6] əl-Bəqərə: 127, 128.
[7] İbrahim: 40.
[8] İbrahim: 41.
[9] Əş-Şuəra: 83-85. 87.
[10] əs-Saffət: 100.

*"Ey Rəbbim! Mənə salehlərdən olan (bir övlad) bəxş et!".*

**9."Rabbənə aleykə təvakkəlnə və iləykə ənəbnə və iləykəl masir"[11].**

*"Ey Rəbbimiz! Biz ancaq Sənə təvəkkül etdik, tövbə edib ancaq Sənə tərəf qayıtdıq. Axır dönüş də ancaq Sənin hüzurunadır".*

**10. "Rabbənə lə təcəlnə fitnətən lilləzinə kəfəru vəğfir lənə rabbənə innəkə əntəl əzizul həkim"[12].**

*"Ey Rəbbimiz! Bizi kafirlər üçün sınaq vasitəsi etmə! (Bizi kafirlərin əli ilə sınağa çəkmə, onları bizim üstümüzdə hakim etmə!) Bizi bağışla. Ey Rəbbimiz! Həqiqətən, Sən yenilməz qüvvət sahibi, hikmət sahibisən!".*

**11. "Rabbi avziini ən əşkura nimətəkəl ləti ənəmtə aləyyə və alə validəyyə və ən amələ salihən tərdahu və ədxilni birahmətikə fi ibadikəs salihin"[13].**

*"Ey Rəbbim! Mənə mənim özümə və ata-anama ehsan buyurduğun nemətə şükür etmək, Sənin razı qalacağın yaxşı iş görmək üçün ilham (qüvvət) ver! Və məni öz mərhəmətinə saleh bəndələrinin zümrəsinə daxil et!".*

**12. "Rabbi həb li min lədunkə zurriyyətən tayyibətən. Innəkə səmiud dua"[14].**

*"Ey Rəbbim! Mənə də Öz tərəfindən pak bir övlad bəxş et! Sən, həqiqətən, duaları eşidənsən!".*

**13. "Rabbi lə təzərni fərdən və əntə xayrul varisin"[15].**

*"Ey Rəbbim! Məni tək (kimsəsiz, varissiz) buraxma. Sən varislərin ən yaxşısısan!".*

**14. "Lə iləhə illə əntə subhanəkə inni kuntu munəz zalimin"[16].**

*"(Ey Rəbbim!) Səndən başqa heç bir tanrı yoxdur. Sən paksan, müqəddəssən! Mən isə, həqiqətən, zalımlardan olmuşam (əmrinə qarşı çıxaraq özümə zülm eləmişəm)".*

**15. "Rabbi-şrahli sadri. Və yəssir li əmri. Vəhlul uqdatən min lisəni. Yəfqəhuu qovli"[17].**

*"Ey Rəbbim! köksümü açıb genişlət; İşimi yüngülləşdir; Dilimdəki düyünü aç ki, sözümü yaxşı anlasınlar!".*

**16. "Rabbi inni zaləmtu nəfsi fağfir li"[18].**

*"Ey Rəbbim! Şübhəsiz ki, mən özüm-özümə zülm etdim. Buna görə məni bağışla!".*

**17. "Rabbənə əmənnə bimə ənzəltə vəttəbənər rasulə fəktubnə maəş şahidin"[19].**

---

[11] əl-Mumtəhinə: 4.
[12] əl-Mumtəhinə: 5.
[13] ən-Nəml: 19.
[14] Ali İmran: 38.
[15] əl-Ənbiya: 89.
[16] əl-Ənbiya: 87.
[17] Taha: 25-28.
[18] əl-Qəsəs: 16.

*"Ey Rəbbimiz, (bizə) nazil etdiyinə iman gətirdik və peyğəmbərinə tabe olduq. Artıq bizləri (haqqa) şahid olanlarla bir yerdə yaz!".*

**18. "Rabbənə lə təcəlnə fitnətən lilqovmiz zalimin. Va nəccinə birahmətikə minəl qavmil kəfirin"[20].**

*"Ey Rəbbimiz! Bizi zalım tayfanın fitnəsinə uğratma! Zalim tayfanın əlində sınağa çəkmə! Və bizi öz mərhəmətinlə kafirlərin əlindən qurtar!".*

**19. "Rabbənəğfir lənə zunubənə və israfənə fi əmrinə və səbbit əqdamənə vənsurnə aləl qavmil kəfirin"[21].**

*"Ya Rəbbimiz, günahlarımıza və işlərimizdə həddi aşdığımıza görə bizi bağışla! Qədəmlərimizi möhkəmləndir (düşmən ilə vuruşda dizimizə qüvvət ver) və kafirlərə qələbə çalmaqda bizə kömək et!".*

**20. "Rabbənə ətinə min lədunkə rahmətən və həyyi lənə min əmrinə raşədə"[22].**

*"Ey Rəbbimiz! Bizə Öz dərgahından mərhəmət bəxş et və işimizə fərəc ver!".*

**21. "Rabbi zidni ilmən"[23].**

*"Ey Rəbbim! Mənim elmimi artır!".*

**22. "Rabbi əuzu bikə min həməzətiş şeyatin. Və əuzu bikə Rabbi ən yəhdurun"[24].**

*"Ey Rəbbim! Mən şeytanların vəsvəsələrindən Sənə sığınıram! Onların yanımda olmalarından (işlərimə xələl qatmalarından) Sənə pənah gətirirəm, ey Rəbbim!"*

**23. "Rabbiğfir varhəm və əntə xayrur rahimin"[25].**

*"Ey Rəbbim (Bizi) bağışla və rəhm et! Sən rəhm edənlərin ən yaxşısısan!".*

**24. "Rabbənə ətinə fid dunyə həsənətən və fil əxirəti həsənətən və qinə azəbən nar"[26].**

*"Ey Rəbbimiz, bizə dünyada da, axirətdə də gözəl nemətlər ver, bizi cəhənnəm əzabından qoru!".*

**25. "Səminə və ətanə ğufranəkə rabbənə va iləykəl masir"[27].**

*"Eşitdik (anladıq) və itaət etdik. Ey Rəbbimiz, bizi bağışla, (axırda) Sənin dərgahına (hüzuruna) qayıdacağıq!".*

---

[19] Ali-İmran: 53.
[20] Yunus: 85, 86.
[21] Ali İmran: 147.
[22] əl-Kəhf: 10.
[23] Taha: 114.
[24] əl-Muminun: 97, 98.
[25] əl-Muminun: 118.
[26] əl-Bəqərə: 201.
[27] əl-Bəqərə: 285.

**26. "Rabbənə lə tuaxiznə in nəsiynə av əxtanə. Rabbənə valə təhmil aleynə isran kəmə haməltəhu alələzinə min qablinə. Rabbənə valə tuhəmmilnə mələ taqətə lənə bih. Vafu annə vağfir lənə varhəmnə. Əntə movlənə fənsurnə aləl qovmil kəfirin"[28].**

*"Ey Rəbbimiz, (bəzi tapşırıqlarını) unutduqda və ya yanıldıqda bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkiləri yüklədiyin kimi, bizi ağır yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi bizə yükləyib daşıtdırma! Bizi əfv edib bağışla, bizə rəhm et! Sən bizim ixtiyar sahibimizsən (mövlamızsan). Kafirlərə qələbə çalmaqda bizə kömək et!".*

**27. "Rabbənə lə tuziğ qulubənə bədə iz hədəytənə va həb lənə min lədunkə rahmətən. Innəkə əntəl vahhab"[29].**

*"Ey Rəbbimiz! Bizi doğru yola yönəltdikdən sonra ürəklərimizə şəkk-şübhə (azğınlıq, əyrilik) salma! Bizə Öz tərəfindən bir mərhəmət bəxş et, çünki Sən, həqiqətən, (bəndələrinə mərhəmət, nemət) bəxş edənsən!".*

**28. "Rabbənə mə xaləqtə həzə batilən subhanəkə fə qinə azəbən nar. Rabbənə innəkə mən tudxilin-narə fəqəd əxzəytəhu va mə lizzaliminə min ənsar. Rabbənə innənə səminə munədiyən yunədi liliyməni ən əəminu birabbikum fə-əmənnə, Rabbənə fəğfir lənə zunubənə və kəffir annə səyyiətinə və təvaffənə məal əbrar. Rabbənə və ətinə mə vaədtənə alə rusulikə valə tuxzinə yovməl qiyəməti innəkə lə tuxliful miad"[30].**

*"Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Bizi cəhənnəm odunun əzabından (Özün) qoru! Ey Rəbbimiz! Sən cəhənnəm oduna atdığın şəxsi, əlbəttə, rüsvay edərsən və zalımlara kömək edən olmaz! Ey Rəbbimiz! Həqiqətən, biz: "Rəbbinizə inanın!" – deyə imana tərəf çağıran bir kimsənin çağırışını eşidib Sənə iman gətirdik. Ey Rəbbimiz! İndi günahlarımızı bizə bağışla, təqsirlərimizdən keç və canımızı yaxşı əməl sahibləri ilə bir yerdə al! Ey Rəbbimiz! Öz peyğəmbərlərin vasitəsilə bizə vəd etdiklərini ver və qiyamət günündə bizi rüsvay etmə! Əlbəttə, Sən Öz vədinə xilaf çıxmazsan!".*

**29. "Rabbənə əmənnə fəğfir lənə vərhəmnə və əntə xəyrur rahimin"[31].**

*"Ey Rəbbimiz! Biz (Sənə) iman gətirdik. Artıq bizi bağışla, bizə rəhm et. Sən rəhm edənlərin ən yaxşısısan!".*

**30. "Rabbənəsrif annə azəbə cəhənnəmə innə azəbəhə kənə ğaramə. Innəhə səət mustəqarrən və muqamə"[32].**

---

[28] əl-Bəqərə: 286.
[29] Ali-İmran: 8.
[30] Ali-İmran: 191-194.
[31] əl-Muminun: 109.
[32] əl-Furqan: 65, 66.

*"Ey Rəbbimiz! Cəhənnəm əzabını bizdən sovuşdur. Şübhəsiz ki, onun əzabı həmişəlikdir! Doğrudan da, o, nə pis məskən, nə pis yerdir!".*

**31. "Rabbənə həb lənə min əzvacinə və zurriyətinə qurratə əyunin vəcəlnə lil muttəqinə iməmə"[33].**

*"Ey Rəbbimiz, bizə zövcələrimizdən və uşaqlarımızdan (sənə itaət eməklə bizi sevindirib) gözümüzün işığı (bəbəyi) olacaq övladlar ehsan buyur və bizi müttəqilərə imam (rəhbər) et!".*

**32. "Rabbi avzini ən aşkurə nimətəkə əlləti ənəmtə aləyyə və alə validəyyə və ən əmələ salihən tərdahu və əslih li fi zurriyyəti inni tubtu iləykə və inni minəl muslimin"[34].**

*"Ey Rəbbim! Mənə həm mənim özümə, həm də ata-anama əta etdiyin nemətə şükür etmək və Sənə xoş gedəcək yaxşı əməl etmək üçün ilham ver, nəslimi əməlisaleh et. Mən (günahlardan) Sənə tövbə etdim və şübhəsiz ki, mən müsəlmanlardanam! (Özümü cani-dildən Allaha təslim edənlərdənəm!)".*

**33. "Rabbənə-ğfir lənə və li-ixvanənə əlləzinə səbəqunə bil iman va lə təcəl fi qulubinə ğillən lilləzinə əmənu Rabbənə innəkə Raufur Rəhim"[35].**

*"Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş (din) qardaşlarımızı bağışla. Bizim qəlblərimizdə iman gətirənlərə qarşı kinə (həsədə) yer vermə. Ey Rəbbimiz! Sən, həqiqətən, şəfqətlisən, mərhəmətlisən".*

**34. "Rabbənə ətmim lənə nuranə vəğfir lənə innəkə alə kulli şeyin qadir"[36].**

*"Ey Rəbbimiz! Bizim nurumuzu tamam-kamal elə və bizi bağışla. Həqiqətən, Sən hər şeyə qadirsən!".*

**35. "Rabbənə innənə əmənnə fəğfir lənə zunubənə va qinə azəbənnar"[37].**

*"Ey Rəbbimiz, biz həqiqətən (Sənə) iman gətirmişik, günahlarımızı bağışlayıb bizi cəhənnəm əzabından qoru!".*

**36. "Rabbənə əmənnə fəktubnə məaş şahidin"[38].**

*"Ey Rəbbimiz! Biz iman gətirdik, bizi (haqqa) şahid olanlarla bir yerə yaz!".*

**37. "Rabbi-icəl həzəl bələdə əminən vəcnubni və bəniyyə ən nəbudəl əsnam"[39].**

*"Ey Rəbbim! Bu diyarı (Məkkəni) əmin-amanlıq yurdu et. Məni və oğullarımı bütlərə tapınmaqdan uzaq elə!".*

**38. "Rabbi inni limə ənzəltə iləyyə min xayrin fəqir"[40].**

---

[33] əl-Furqan: 74.
[34] əl-Əhqaf: 15.
[35] əl-Həşr: 10.
[36] ət-Təhrim: 8.
[37] Ali-İmran: 16.
[38] əl-Maidə: 83.
[39] İbrahim: 35.

*"Ey Rəbbim! Mən Sənin mənə nazil edəcəyin xeyirə möhtacam!".*

**39. "Rabbi insurni aləl qovmil mufsidin"[41].**

*"Ey Rəbbim! Fitnə-fəsad törədən qövmə qarşı mənə yardım et!".*

**40. "Rabbənə lə təcəlnə məal qovmiz zalimin"[42].**

*"Ey Rəbbimiz! Bizi zalımlarla bir etmə!".*

**41. "HəsbiyAllahu lə iləhə illə huvə aleyhi təvəkkəltu və huvə rabbul arşil azim"[43].**

*"Mənə təkcə Allah yetər. Ondan başqa ibadətə layih heç bir haqq məbud yoxdur. Mən Ona təvəkkül etdim. O, böyük ərşin sahibidir!".*

**42. "Asə rabbi ən yəhdiyəni səvaəs-səbil"[44].**

*"Ola bilsin ki, Rəbbim mənə doğru yolu göstərsin!"*

**43. "Rabbi nəccini minəl qovmiz zalimin"[45].**

*"Ey Rəbbim! Məni bu zalım tayfanın əlindən qurtar!".*

**44. "Allahummə ətinə fid dunyə həsənətən va fil axirəti həsənətən va qinə azəbən nar"[46].**

*"Ey Allahım! Bizə dünyada və axirətdə savab bəxş et! Bizi cəhənnəm odundan qoru!"*

**45. "Allahummə inni əuzu bikə min fitnətin nar və azəbin nar. Va fitnətil qabr va azəbəl qabr va şərri fitnətil ğinə va şərri fitnətil fəqr. Allahummə inni əuzu bikə min şərri fitnətil məsihid-dəccal. Allahummə iğsil qalbi bi-məis səlci vəl bərədi. Va nəqqi qalbi minəl xətayə kəmə nəqqəytə əs-səvbəl əbyəd minəd dənəs. Va baid beyni və beynə xətayəyə kəmə baədtə beynəl məşriqi vəl məğrib. Allahummə inni əuzu bikə minəl kəsəli vəl məsəmi vəl məğrəm"[47].**

*"Allahım! Mən cəhənnəmin fitnəsindən və əzabından sənə sığınıram. Qəbrin fitnəsindən və əzabından sənə sığınıram. Varlılığın şər fitnəsindən sənə sığınıram. Kasıblığın da şər fitnəsindən sənə sığınıram. Allahım! Məsihi Dəccalın şər fitnəsindən sənə sığınıram. Allahım mənim qəlbimi qar və buz suyu ilə təmizlə. Ağ paltarı çirkdən təmizlədiyin kimi mənim qəlbimi günahlardan təmizlə. Şərq ilə qərbi (bir-birindən) uzaq etdiyin kimi məni də günahlarımdan uzaq et! Allahım mən: tənbəllikdən, günahkarlıqdan və xəsarətdən - Sənə sığınıram!".*

---

[40] əl-Qəsəs: 24.
[41] əl-Ənkəbut: 30.
[42] əl-Əraf: 47.
[43] ət-Tövbə: 129.
[44] əl-Qəsəs: 22.
[45] əl-Qəsəs: 21.
[46] Buxari: 7, 163.Müslim: 4, 2070.
[47] Buxari: 7, 161. Müslim: 4, 2078.

**46. "Allahummə inni əuzu bikə minəl aczi vəl kəsəli vəl cubni vəl hərəmi vəl buxli. Və əuzu bikə min əzabil qəbri və min fitnətil məhyə vəl məmat"[48].**

*"Allahım! Acizlikdən, tənbəllikdən, qorxaqlıqdan, qocalıqdan və paxıllıqdan sənə sığınıram. Qəbr əzabından, diri və ölülərin şərindən sənə sığınıram!".*

**47. "Allahummə inni əuzu bikə min cəhdil bəla və dərkiş şəqa və suəl qəda və şəmatətil əda!"[49].**

*"Allahım bəlaların məni üstələməsindən, bədbəxtçilikdən, pis aqibətdən və düşmən təcavüzündən Sənə sığınıram!"*

**48. "Allahummə aslih li diniyə əlləzi huvə ismətu əmri və əslih li dunyəyə əlləti fihə məaşi və əslih li axirəti əlləti fihə məadi. Vəcəlil həyatə ziyadətən li fi kulli xeyr vəcəlil movtə rahətən li min kulli şər!"[50].**

*"Allahım mənim əsas qayəm olan dinimi, yaşayışım olan dünyamı,qayıdış yerim olan axirətimi islah et! Həyatımı xeyir işlər görməyə, ölümümü şər işlərdən qurtulmağa səbəb et!"*

**49. "Allahummə inni əsəlukəl hudə vət tuqa vəl əfafə vəl ğinə!"[51].**

*"Allahım mən səndən hidayət, təqva (mütilik), lütfkarlıq və gözütoxluq istəyirəm!".*

**50. "Allahummə inni əuzu bikə minəl əczi vəl kəsəli vəl cubni vəl buxli vəl hərəmi və əzabəl qabri. Allahummə əəti nəfsi təqvahə və zəkkihə əntə xayru mən zəkkahə. Əntə valiyyuhə və movləhə. Allahummə inni əuzu bikə min ilmin lə yənfa va min qalbin lə yəxşa və min nəfsin lə təşba və min dəvətin lə yüstəcəbu ləhə!"[52].**

*"Allahım mən acizlikdən, tənbəllikdən, qorxaqlıqdan, paxıllıqdan, düşgünlükdən və qəbr əzabından Sənə sığınıram! Allahım mənim nəfsimə təqva qismət et və nəfsimi qoru! O Sənin əlindədir! Allahım mən faydasız elmdən, (Səndən) qorxmayan qəlbdən, doymayan nəfsdən və qəbul olunmayan duadan Sənə sığınıram!"*

**51. "Allahummə ihdini və səddidni. Allahummə inni əsəlukəl hudə vəs sədad!"[53].**

*"Allahım mənə hidayət ver və sabitqədəm et. Allahım mən səndən hidayət və sabitqədəmlik istəyirəm!"*

**52. "Allahummə inni əuzu bikə min zəvali nimətikə və təhəvvuli afiyətikə və fucaəti niqmətikə və cəmiə səxatikə!"[54].**

---

[48] Buxari: 7, 59. Müslim: 4, 2079.
[49] Buxari: 7, 155. Müslim: 4, 2080.
[50] Müslim: 4, 2087.
[51] Müslim: 4, 2087.
[52] Müslim: 4, 2088.
[53] Müslim: 4, 2090.
[54] Müslim: 4, 2097.

*"Allahım! Mən sənin verdiyin nemətin yox olmasından, lütfünün dəyişməsindən, qəfil bəlalarından və bütün qəzəbindən Sənə sığınıram!"*

**53. "Allahummə inni əuzu bikə min şərri mə amiltu və min şərri mə ləm əməl!"[55].**

*"Allahım! Mən etdiklərimin və (hələ) etmədiklərimin şərindən sənə sığınıram!"*

**54. "Allahummə əksir məli və vələdi və barik li fimə atəytəni". "və ətil hayəti alə taətikə və əhsin aməli vəğfir li!"[56].**

*"Allahım mənim malımı, övladımı artır və mənə verdiyini bərəkətli et!" "Mənim həyatımı sənə itaət üçün uzat, mənim əməlimi gözəl et və məni bağışla!"*

**55. "Lə iləhə illəllahul Azim əl-Həlim, lə iləhə illəllahu rabbul arşil azim lə iləhə illəllahu rabbus səmavati və rabbul ardi və rabbul arşil kərim".**

*"Əzəmətli və lütfkar Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur. Əzəmətli ərşin rəbbi olan Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur. Göylərin, yerin və kəramətli ərşin rəbbi Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur".*

**56. "Allahummə rahmətəkə arcu fələ təkilni ilə nəfsi tarfətə ayn. Və aslih li şəni kulləhu lə iləhə illə əntə"[57].**

*"Allahım mən sənin rəhmətini diləyirəm. Məni bir an da olsun öz nəfsimin öhtəsinə buraxma. Mənim bütün işlərimi islah et. Həqiqətən səndən başqa ibadətə layiq haqq məbud yoxdur"*

**57. "Lə iləhə illə əntə subhanəkə inni kuntu minəz zalimin!"[58].**

*"(Allahım!) Səndən başqa ibadətə layiq haqq məbud yoxdur. Sən bütün naqislik və eyiblərdən paksan. Mən həqiqətən (öz nəfsimə qarşı) zalimlərdən olmuşam!"*

**58. "Allahummə inni abdukə ibnu abdikə, ibnu əmətikə, nasiyəti biyədikə, madin fiyyə hukmukə, adlun fiyyə qədaukə, əsəlukə bikulli ismin huvə ləkə səmməytə bihi nəfsəkə av ənzəltəhu fi kitəbbikə av alləmtəhu ahədən min xalqikə av istəsərtə bihi fi ilmil ğaybi indəkə ən təcələl quranə rabiə qalbi və nura sadri və cələə huzni va zihabə həmmi!"[59].**

*"Allahım mən sənin bəndənəm, sənin kişi və qadın bəndənin oğluyam, mənim ixtiyarım sənin əlindədir, sənin qanunların mənim üçün keçərlidir, sənin hökmün mənim üçün ədalətlidir. Öz özünü adlandırdığın, yaxud kitabında nazil etdiyin və ya bəndələrindən hansınasa öyrətdiyin, yaxud Öz qeybi elmində gizli saxladığın hər bir adınla sənə dua*

---

[55] Müslim: 4, 2085.

[56] Rəvayətin birinci hissəsini Buxari: 4, 154. Ikinci hissəsini isə Buxari Ədəbul Mufrad kitabı: 653-də rəvayət etmişdir. Albani (a.r.e.) hədisin səhih olduğunu demişdir.

[57] Əbu Davud: 4, 324. Əhməd: 5, 42. Albani (a.r.e.) hədisin həsən olduğunu demişdir.

[58] Tirmizi: 5, 529. Albani (a.r.e.) səhih demişdir. Bu dua Yusif Peyğəmbərin (a.s.) duasıdır.

[59] Əhməd: 1, 391, 452. Albani (a.r.e.) əl-Kəlimut Tayyib kitabı səh. 73-də hədisin səhih olduğunu demişdir.

*edirəm ki, Quranı mənim qəlbimin rahatlığı, sinəmin nuru, kədərimin və qəmimin aparıcısı et!".*

**59. "Allahummə musarrifəl qulub sarrif qulubənə ilə taətikə!"[60].**

*"Ey qəlbləri yönəldən Allah! Bizim qəlbimizi Öz taətinə yönəlt!".*

**60. "Ya muqallibəl qulubi səbbit qalbi alə dinikə!"[61].**

*"Ey qəlbləri çevirən (Allah)! Mənim qəlbimi dinində sabit et!"*

**61. "Allahummə inni əsəlukəl afiyətə fid dunyə vəl axirəh"[62].**

*"Allahım mən dünya və axirətdə sənin mərhəmətini diləyirəm!"*

**62. "Allahummə əhsin aqibətənə fil umuri kullihə və əcirnə min xizyid dunyə və azəbil axirah!"[63].**

*"Allahım hər bir işdə bizim aqibətimizi gözəl et! Bizi dünya rəzalətindən və axirət əzabından qoru!"*

**63. "Allahummə inni əsələkə min xayri mə səələkə minhu nəbiyyukə Muhəmməd (s.a.v.) və əuzu bikə min şərri məstəazə minhu nəbiyyukə Muhəmməd (s.a.v.) və əntəl mustəan və aləykəl bəlağ valə havlə valə quvvətə illə billəh!"[64].**

*"Allahım mən Səndən, Peyğəmbərin Məhəmmədin (s.a.v.) istədiklərinin ən xeyirlisini istəyirəm. Peyğəmbərin Məhəmmədin (s.a.v.) sənə sığındığı işlərin ən şərindən sənə sığınıram. Sənsən bizim sığınacağımız! Dualar yalnız sənə edilir. Həqiqətən Allahdan başqa qüdrət və qüvvət sahibi yoxdur!"*

**64. "Allahummə inni əuzu bikə min şərri səmi və min şərri basari və min şərri lisəni və min şərri qalbi və min şərri muniyyi".**

*"Allahım mən qulağımın, gözümün, dilimin, qəlbimin və istəklərimin şərindən Sənə sığınıram!"*

**65. "Allahummə inni əuzu bikə minəl barasi vəl cununi vəl cuzami və min səyyiil əsqami".**

*"Allahım mən cüzam, dəlilik və pis xəstəliklərdən Sənə sığınıram!"*

**66. "Allahummə inni əuzu bikə min munkəratil əxlaq vəl əmal vəl əhvaa".**

*"Allahım mən pis əxlaqlardan, əməllərdən və istəklərdən Sənə sığınıram!"*

**67. "Allahummə innəkə əfuvvun kərimun tuhibbul afvə fəfu anni".**

*"Allahım Sən bağışlayansan, lütfkarsan, bağışlamağı sevirsən, məni bağışla!"*

**68. "Allahummə inni əsələkə feləl xeyrat və tərkəl munkərat və hubbəl məsəkin və ən təğfirə li və tərhaməni və izə əradtə fitnətə qovmin fətəvəffani**

---

[60] Müslim: 4, 2045.

[61] Tirmizi: 5, 238. Əhməd: 4, 182. Albani hədisin səhih olmasını demişdir.

[62] Tirmizi: 5, 534. Albani (a.r.e.) səhih demişdir.

[63] Əhməd: 4, 181. Heysəmi (a.r.e.) demişdir ki, Əhmədin rəvayətinin isnadındakı kişilər inamlı adamlardır (yəni səhihdir!).

[64] Tirmizi: 5, 537. İbn Macə: 2, 1264.

**ğeyrə məftun və əsəlukə hubbəkə və hubbə mən yuhibbukə və hubbə əməlin yuqərribuni ilə hubbikə"[65].**

*"Allahım mən yaxşı işləri görməyimi, pis işləri tərk etməyimi, fağırları sevməyimi Səndən diləyirəm! Məni bağışlamanı, rəhm etməni istəyirəm! Bir tayfanı fitnəyə düçar etmək istədikdə məni fitnəyə uğramadan öldür! Sənə və Səni sevənlərə sevgini, Sənin sevginə yaxınlaşdıran işləri Səndən diləyirəm!"*

**69. "Allahummə inni əsələukə minəl xeyri kullihi, aciləhu və əciləhu mə alimtu minhu vəmə ləm aləm və əuzu bikə minəş şərri kullihi aciləhu və əciləhu mə alimtu minhu vəmə ləm aləm. Allahummə inni əsəlukə min xəyrin mə səələkə abdukə və nəbiyyukə. Və əuzu bikə min şərri mə azə minhu abdukə və nəbiyyukə. Allahummə inni əsəlukəl cənnətə vəmə qarrəbə iləyhə min qovlin ov aməl. Və əuzu bikə minən nar vəmə qarrəbə iləyhə min qovlin ov aməl. Və əsəlukə ən təcələ kullə qədain qadəytəhu li xəyran"[66].**

*"Allahım mən Səndən geci-tezi baş verəcək, bildiyim və bilmədiyim bütün xeyirləri diləyirəm! Geci-tezi baş verəcək, bildiyim və bilmədiyim bütün şərlərdən Sənə sığınıram! Allahım! Mən qulun və Peyğəmbərinin Səndən dilədiyinin ən xeyirlisini səndən diləyirəm! Qulun və Peyğəmbərinin Sənə sığındığının ən şərindən sənə sığınıram! Allahım! Mən Səndən cənnət və ona yaxınlaşdıran söz və əməlləri diləyirəm! Mən Sənə cəhənnəm və ona yaxınlaşdıran söz və əməllərdən sığınıram! Mənim qədərimə yazdığın hər hökmün xeyirli olmasını Səndən diləyirəm!"*

**70. "Allahumməhfəzni bil isləmi qaimən vəhfəzni bil islәmi qaidən vəhfəzni bil islәmi raqidən vələ təşmit bi əduvvən vələ hasidən. Allahummə inni əsəlukə min kulli xeyrin xəzainuhu biyədikə və əuzu bikə min kulli şərrin xəzainuhu biyədikə"[67].**

*"Allahım məni ayaqda olanda, oturanda, yatanda da müsəlman kimi qoru! Məni düşmənin və həsəd çəkənin qarşısında aciz etmə! Allahım, xəzinəsi əlində olan bütün xeyirləri Səndən diləyirəm! Xəzinəsi əlində olan bütün şərlərdən Sənə sığınıram!"*

**71. "Allahumməqsim lənə min xaşyətikə mə təhulu bihi beynənə və beynə maasikə və min taatikə mə tubəlliğunə bihi cənnətəkə və minəl yəqini mə tuhəvvinu bihi aləynə məsaibəd dunyə. Allahummə məttinə bi əsmainə və əbsarinə və quvvatinə mə əhyəytənə. Vəcəlhul varisə minnə vəcəl səranə alə mən zaləmənə vənsurnə alə mən adənə vələ təcəl musibətənə fi dininə. Vələ**

---

[65] Əhməd Müsnəd kitabı: cild 5, səh 243. Tirmizi cild 5, səh 369. Hakim 1, 521. Tirmizi hədisin həsən olduğunu demişdir. O deyir mən Buxaridə bu hədis haqda soruşduqda o belə dedi: hədis həsən, səhihdir.

[66] İbn Macə: 2, 1264. Əhməd: 6, 134. Səhihdir bax Səhihi İbn Macə: 2, 327.

[67] Hakim: 1, 525. Səhihul Cami 2, 398.

**təcəlid dunyə əkbərə həmmənə vələ məbləğə ilminə vələ tusallit aləynə mən lə yərhəmunə"[68].**

*"Allahım! Bizimlə günahlarımız arasında maneə olan qorxunu bizə bəxş et! Cənnətinə qovuşduracaq qədər itaətini bizə əta et! Dünya müsibətlərini yüngülləşdirəcək qədər yəqinlik ver! Allahım, yaşadğımız müddətdə, qulaqlarımız, gözlərimiz və qüvvətimizlə bizə rahatlıq ver! Bunu bizim vərəsələrimizə də bəxş et! Bizim müsibətimizi bizə zülm edənlərə ver! Bizi, düşmənlərimiz üzərində qalib et! Bizi, dinimizdə müsibətə düçar etmə! Dünyanı bizim böyük qayəmiz, elmi məqsədimiz etmə! Bizə mərhəmət etməyən kəsləri üzərimizdə hakim etmə!"*

**Həcc edən qardaş və bacılar!**
**Diqqətli olun və yalnız Allahdan istəyin, həqiqətən O, hər şeyə qadir, duaları qəbul edəndir!**
**Sonda Allaha həmd sənalar və Peyğəmbərimiz Məhəmmədə ﷺ onun ailəsinə və əshabına Allahın salavatı və salamı olsun.**

[68] Tirmizi: 5, 528. Hakim: 1, 258. Səhihul Cami: 1, 400.

**Mündəricat**

HƏCCIN VACIBLIYI ........................................4
HƏCCIN VACIB OLMASI ÜÇÜN ŞƏRTLƏR ........................................5
BAŞQASININ ƏVƏZINƏ HƏCC ETMƏK ........................................5
HƏCC VƏ ÜMRƏNIN FƏZILƏTI ........................................7
SƏFƏR, ÜMRƏ VƏ HƏCC ETMƏYIN ƏDƏB QAYDALARI ........................................8
HƏCC VƏ ÜMRƏNIN BAŞLAMA MIQATLARI (MƏNTƏQƏLƏRI) ........................................12
ÜÇ NÖV HƏCCIN VƏSFI ........................................16
EHRAMDA QADAĞAN OLUNAN ƏMƏLLƏR ........................................18
QADAĞALARI EDƏNIN BOYNUNA DÜŞƏN KƏFFARƏ ........................................18
EHRAMDA OLANA ICAZƏ VERILƏN ƏMƏLLƏR ........................................19
HƏCCIN RÜKNLƏRI VƏ VACIBLƏRI ........................................20
ÜMRƏNIN RÜKNLƏRI VƏ VACIBLƏRI! ........................................21
MƏKKƏYƏ NECƏ DAXIL OLMAQ ........................................22
KƏBƏNI TƏVAF ETMƏK ........................................22
ƏRAFADA DAYANMAQ! ........................................31
MÜZDƏLIFƏDƏ GECƏLƏMƏK ........................................32
TƏŞRIQ (11,12, 13) GÜNLƏRI EDILƏN HƏCC ƏMƏLLƏRI ........................................38
VIDA TƏVAFI ........................................39
PEYĞƏMBƏRIN ﷺ MƏSCIDINI ZIYARƏT ETMƏK ........................................41
QURANI KƏRIMDƏN VƏ SƏHIH HƏDISLƏRDƏN ........................................43
MÜSTƏCƏB DUALAR! ........................................43
MÜNDƏRICAT ........................................54